# HƏFTƏ İÇİ

www.hafta.az

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

№ 32 (3356) Cümə axşamı / 1-2 aprel 2021-ci il Qiymәti 40 qәpik


# İşğaldan azad KƏLBƏCƏR

***Bu** günləri, yəni martın sonu -aprelin əvvəllərini artıq 28-ci ildir ki, vərdiş etdiyimiz kimi, Azərbaycanın həddindən artıq əsrarəngiz təbii gözəlliyə malik cənnət guşəsi olan Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğalının növbəti hüznlü ildönümü günləri olaraq keçiririk. Ancaq ötən illərdən fərqli olaraq bu dəfə, nəhayət, biz həmin ildönümünü digər rayonlar kimi, Kəlbəcəri də işğalçılardan azad etmiş qalib bir ölkə kimi qarşılayırıq. Və 4 aydan çoxdur ki, biz artıq işğaldan azad edilmiş Kəlbəcərdəki bərpa və quruculuq işləri, on illərlə o yurdların həsrəti ilə qovrulan keçmiş məcburi köçkün soydaşlarımızın Böyük Qayıdışı haqda düşünürük... Bu baxımdan "Həftə içi" də yaxın illərdə təbii resurslarla çox zəngin olan Kəlbəcər rayonunun iqtisadi-sosial həyatının əsasən hansı istiqamətlərdə qurulacağına dair ilkin bir araşdırma aparmağa çalışıb. "İşğaldan azad olunan Kəlbəcər rayonu Azərbaycanın ən yüksək dağ rayonudur. Rayon faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngindir. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları onlardan istismar olunan qızıl yataqları, sənaye əhəmiyyətli ehtiyatları 200 tondan çox olan civə yataqları, mişar daşı istehsalına yararlı tuf yatağı, kərpic istehsalına yararlı gil yatağı, yüngül beton doldurucusu kimi istifadə olunan perlit yatağı, üzlük daş yatağı, qum-çınqıl qarışığı yatağı, gözəl dekorativliyə malik 4 mərmər oniksi nefroid (ehtiyatları 801 ton) yatağı; 1 obsidian (dəvə gözü) yatağı, 1 listvenit yatağı vardır. Sənaye ehtiyatları dövlət balansında qeydə alınan civə yatağı Kəlbəcər filiz rayonunda yerləşən Levçay yatağıdır. Həmin rayonda yerləşən digər civə yatağının ehtiyatları istismar nəticəsində tükənib". Kəlbəcər rayonunun 2020-ci il noyabrın 25-də işğaldan azad olunmasından dərhal sonra İqtisadi İslahatlarin Təhlili və Kommunikasiya Mərkəzinin yayımladığı şərhdə belə deyilir. "Ölkə iqtisadiyyatında qeyri-neft sektorunun sənaye hissəsinin mədənçıxarma sahəsində metalların, xüsusən də nəcib metalların hasilatı önəmli yer tutur. Kəlbəcərdə olan qızıl yataqları ölkədə bu sahədə yeni inkişaf templərinə səbəb olacaq. Ölkənin yeni qızıl yataqlarının istismara verilməsi gələcəkdə "sarı metal"ın hasilatını nəzərə alsaq, dünya bazarında qızılın qiymətinin qalxması, Azərbaycan üçün müsbət tendensiya olacaqdır.*







## Rayonun gələcək inkişaf perspektivləri

Qızılın etibarlı maliyyə aktivinə çevrilməsi prosesi dünyanın siyasi qeyri-sabitliyi dövründə və ya qlobal iqtisadi böhranın fonunda baş verir və son illərdə dünya ölkələrinin hökümətləri valyuta ehtiyatlarında dollar aktivlərinin payını azaldaraq qızılın payını sürətlə artırırlar.

Qeyri-neft sektorunda üç lider məhsuldan biri hesab olunan qızılın ixracı Zəngilan və Kəlbəcər rayonlarının potensialından səmərəli istifadə etdikdən sonra daha da artacaqdır. Kəlbəcərin turizm sahəsinin inkişafi üçün gözəl təbiəti, əlverişli relyefi, zəngin mineral sulari dövlət iqtisadiyyatı üçün böyük əhəmiyyət daşiyir. Yuxarı İstisu, Aşağı İstisu, kimi çox böyük müalicəvi təsirə malik mineral su yataqları da var. Alagöllər, Qaragöl, Zalxa gölü və s. gölləri var. Zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkündür. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilib. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi. Rayonun İstisu qəsəbəsində İstisu sanatoriyaları fəaliyyət göstərirdi. Orada hər il 50 mindən artıq insan müalicə olunur, eyni zamanda istirahət edirdi. Bu sanatoriyaların yenidən bərpası və fəaliyyət göstərməsi bura olan turist marağının sayını artıracaq.

### Kəlbəcərdə 400-dən çox mineral bulaq var. Hər il təkcə 4 milyard litr İstisu axıb çaylara tökülür

Kəlbəcər rayonu bir çox turistlərdə də maraq yaradacaq tarixi abidələrlə zəngindir. Burada alban dövrünə aid xeyli tarixi abidələr var. Kəlbəcərin Ağdaban kəndinin də qədim alban tayfasının adını daşıdığı güman edilir. Erməni vandallığı tarıxı abidələrimizə zərər vurmaqla öz vəhşiliklərini dünyaya göstərmiş oldular. Sübut etdilər ki, bu tarixi abidələr, bu torpaqlar hec zaman onların olmayıb. Kəlbəcər ərazisindəki qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarı - "əkiz"lərdir. Kənd təsərrüfatında əsasən heyvandarlıq və əkinçilik inkişaf edib. Torpaq örtüyünün əmələ gəlməsində relyef və iqlim mühüm rol oynayır, Kəlbəcər rayonunun relyefi də daha çox heyvandarlıq sahəsinin inkişafı üçün əlverişlidir. Yay otlaqları kimi istifadə edilən dağ çəmənlikləri geniş sahə tutur. Rayonda əsasən çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları yayılıb. Kəlbəcərin orta dağlıq və dağ ətəyi ərazilərində iqlim şəraitinə uyğun olaraq dəmyə əkinçiliyi, bağçiliq, üzümçülük, tərəvəzçilik və tütünçülüyü inkişaf etdirmək olar. Yüksək dağlıq ərazilərin əhəmiyyəti ondan ibarətdir ki, iqlim şəraiti və dağ-çəmən torpağından yaylaq kimi istifadə oluna bilər. Meşələrin ümumi sahəsi 30 min hektara yaxındır". Bu rəsmi şərhdən belə nəticəyə gəlmək olur ki, əhalinin o torpaqlarda məskunlaşdırılması ilə paralel və ondan sonra Kəlbəcərin zəngin təbii ehtiyatlarından əsasən 12 istiqamət üzrə yetərincə yararlanmaq mümkündür:

*- dağ-mədən sənayesi;*
*- ayrıca qızıl, civə və xrom hasilatı;*
*- tikinti materialları bazası(adi daş, mişar daşı, ağac və s.);*
*- heyvandarlıq;*
*- mineral və müalicəvi su istehsalı;*
*- kurort və sanatoriya tikintisi;*
*- əkinçilik;*
*- bağçılıq;*
*- tərəvəzçilik;*
*- arıçılıq;*
*- əczaçılıq bazası(dərman bitkiləri və s.);*
*- balıqçılıq;*
*- turizm.*

Bundan başqa, Kəlbəcərdə, zərurət olacağı təqdirdə, təbii ki, ekoloji tarazlığı qorumaq şərti ilə dağlardakı küləkdən və dağ çaylarının sularından yararlanmaqla elektrik enerjisi hasilatı da mümkündür. Məsələ burasındadır ki, sovet dövründə hər şey Moskvanın göstərişi ilə edildiyindən digər bölgələrimiz kimi, Kəlbəcərin də potensialı gərəyincə öyrənilib, araşdırılmayıb.

▸▸ Səh. 3

MÜSAHİB

## "1 apreldə doğum günümü ilk dəfə qeyd edəcəm"



**Aqil Abbas,**
Milli Məclisin deputatı

***44 günlük Vətən müharibəsi Azərbaycanın ömrünə qızıl hərflərlə zəfər tarixi yazdı. Torpaqları azad olunan insanlarımız uzun illər çəkdiyi ağrı-acı, həsrətdən sonra Vətənlə birlikdə yenidən doğuldu, 30 il ona unutdurulan doğum günlərini yada saldı, Vətənlə birlikdə yaşadı azadlığını... Bu günlər özünün 68-ci doğum gününü işğaldan azad olunan vətənində - Ağdamda keçirməyi arzu edən yazıçı, millət vəkili Aqil Abbas kimi... Doğum günü ərəfəsində "Həftə içi"nə müsahibə verən Aqil Abbas maraqlı məsələlərə diqqət çəkib.***

*Nə Məhəmməd peyğəmbərin nəslindənəm, nə də Eynşteynin. Kiməm ki mən, hələ doğum günüm də ola*

▸▸ Səh. 3

MÜSAHİB



**Bədrəddin Həsrətov,**
Azərbaycan Arıçılar Assosiasiyasının prezidenti

■ Qarabağda arıçılığın inkişafına dair proqram hazırlanır...

■ Biz isə yerli cinslərin həddindən artıq cırlaşmasının qarşısını almaq iqtidarında deyilik...

■ Bütün dünyada arıçılar cəmiyyətin ərköyün təbəqəsinə çevriliblər...

▸▸ Səh. 5

GÜNÜN FOTOSU...



**Rusiya müdafiə nazirinin müavini, ordu generalı Dmitri Bulqakov Qarabağa səfər edib...**

GÜNÜN SİTATI

*"Artıq tam əminliklə demək olar ki, Dağlıq Qarabağ məsələsi, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmışdır. Dağlıq Qarabağ adında hazırda hər hansı bir ərazi vahidi yoxdur"*



**İlham Əliyev,**
Azərbaycan Prezidenti

KARİKATURA




Paşinyanın kirli xəritə "oyunu"

## Azərbaycan əsgəri bayraq sancıb qayıtdı

**İsmayıl Yaşaroğlu,**
Real TV-nin xüsusi müxbiri

Suriya, Livan, Sudan, Əfqanıstanın adları gələndə nə təsəvvür oyanırsa, həmin o vəziyyəti biz Qarabağda gördük.

▸▸ Səh. 6

STATİSTİKA



**■ 2021-ci il yanvarın 1-i vəziyyətinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunda 1228,8 min (2020-ci il yanvarın 1-i vəziyyətinə 1270,6 min) pensiyaçı qeydiyyatda olub ki, bu da ölkə əhalisinin 12,3 faizini təşkil edir.**

Onların 58,3 faizi yaşa, 30,4 faizi əlilliyə, 11,3 faizi isə ailə başçısını itirməyə görə pensiya alır. Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,7 faiz artaraq 302,2 manat təşkil etmiş və orta aylıq əmək haqqının 42,7 faizinə bərabər olub.




▸▸ Səh. 5

## Dünya iqtisadiyyatına uzanan dəniz yolları: boğaz və kanallar

AKTUAL

# Dövlət Departamentindən ikili standartlı yanaşma




ABŞ Dövlət Departamentinin Dövlət katibi Entoni Blinken Vaşinqtonda 2020-ci il üçün dünya ölkələrində insan haqlarının durumuna dair illik hesabatında Azərbaycanda insan haqlarının pozulduğunu açıqlayıb. Qərəzlə dolu bu hesabatda bildirilir ki, Azərbaycan Hökuməti sentyabrın 28-dən dekabrın 12-dək tətbiq etdiyi hərbi vəziyyətdə hərəkət və məlumata çıxış azadlığını məhdudlaşdırıb. Dağlıq Qarabağda hərbi münaqişə ilə əlaqədar qanunsuz qətllərin, mülki şəxslər arasında tələfatların və qeyri-insani rəftar kimi insan haqları pozuntularının müşahidə olunduğunu bildiriblər. Demokratiya carçılarının bu ədalətsiz, cəfəng iftiraları ölkə ictimaiyyəti tərəfindən qəzəblə qarşılanıb. Maraqlıdır, ABŞ Dövlət Departamentinin Azərbaycana qarşı hazırladığı bu qərəzli hesabat nəyə hesablanır?



**Qabil Hüseynli,**
politoloq

> *Belə davam edərsə ABŞ da hazırlanan qərəzli bəyanatlar bir çox xalqlar tərəfindən nəzərə alınmayacaq*

■ **Politoloq Qabil Hüseynli "Həftə içi"nə açıqlamasında bildirib ki, ABŞ Dövlət Departamenti belə bir cəfəng hesabatla insan haqları dəyərlərinə kölgə salmaqla yanaşı, tamamilə özünü itirib.** Politoloq hesab edir ki, ABŞ Dövlət Departamenti özlərinin xiristian təəssübkeşliyindən, kavanyal təsəvvürlərdən, dünənə qədər mənəvi qida aldıqarı nasist ideyalardan ilhamlanaraq başqa xalqları haqsız yerə günahlandırmaq istəyirlər.

"Soruşmaq lazımdır ki, onlara bu haqqı kim verib?! Azərbaycan xalqı çətin dövrünü yaşıyır. Azərbaycan pandemiya şəraitində öz əhalisini qorumaq üçün tədbirlər görür. Bunun sizə nə dəxli var? Ölkənin problemlərinə bax. Gündə silahlılar 10-15 nəfəri yaralayır, sən onların hüquqlarını qoru. Sən get öz vətəndaşının dərdini çək, bizim qayğımıza qalma. Biz öz problemlərimizi özümüz həll edəcəyik. Belə davam edərsə ABŞ da hazırlanan qərəzli bəyanatlar bir çox xalqlar tərəfindən nəzərə alınmayacaq. Mən buna ağılsızlıq deyirəm". Politoloq bəyan edib ki, Azərbaycan xalqı tədricən, öz mentalitetinə, tarixi ənənələrinə uyğun olaraq demokratikləşmə yolu ilə irəliləyir. Onun sözlərinə görə, bu prosesdə ABŞ-ın Dövlət Departamentinin göstərişinə zərrə qədər də ehtiyac yoxdur.

"Azərbaycan xalqının 99 faizi bu fikirdədir. Ona görə də bu hesabatın qaraqəpiklik dəyəri yoxdur". Politoloq hesab edir ki, hesabatda Azərbaycanın ədalətli, haqq uğrunda apardığı müharibəyə ləkə salmaq istəkləri də müşahidə olunur. "Sizdən soruşuram, biz mülki insanlar arasında qətilləri harda eləmişik. Faktları ortaya qoyun. Mən sizə sübut gətirim ki, erməni cinayətkarları döyüş zonasından kilometrlərlə aralıda yerləşən Gəncəni raket zərbələri ilə dağıdarkən onlarla mülkü insanlarımız həlak oldu. Hələ xarabalıqları qalır. Kor gözünüzü açıb yaxşı baxın! Bərdəyə qadağan olunmuş raketlərlə atəş açarkən yenə də onlarla mülkü vətəndaşımız həlak olub. Ümumilikdə, 100-dən çox mülkü vətəndaşımız qadağan edilən karset tipli raketlərin zərbəsi ilə qətlə yetirilib, 900-dən çox adam ağır xəsarət alıb. İşğalda qalan torpaqlarımıza, əhalimizə qarşı edilən soyqırımların qanı soyumayıb. Niyə bu cinayətlərə görə Ermənistana qarşı heç bir sanksiya, hesabat xarakterli bəyanatları hazırlamırsınız!? Niyə bunlardan danışmırsan? 30 ildən artıq müddətdə torpaqları istila edilmiş, 1 milyondan artıq insanı etniktəmizləməyə məruz qalmış, qeyri-insanı şəraitdə yaşamağa məcbur edilmiş insanların əzab-əziyətindənniyə danışmırsan?! Təcavüzkarı müdafiə edən bu mövqe nədir?! Niyə xiristian təəssübkeşliyindən çıxış edərək erməni cinayətkarlarını müdafiə edirsiz?! Siz qeyri-obyektiv, subyektiv mülahizələrinizlə xalqlararası münasibətləri daha da korlayırsız".

Politoloq bütün bunları nəzərə bildirib ki, ABŞ Dövlət Departamenti belə hesabatla Azərbaycanın müharibədəki zəfərinə kölgə salmaq və erməniləri yenidən ruhlandırıb üstümüzə salmaq istəyir.

"ABŞ Dövlər Departamenti təxribat xarakterli bu cür hesabatlarla bölgəyə sabitlik, əmin-əmanlıq deyil, qarşıdurma və müharibə vəziyyəti gətirir".

✍ *Tahirə Qafarlı*

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

Gündəm

# Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək

***Martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış edib. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev onlayn Zirvə görüşünü açaraq iştirakçıları salamladı, təşkilatın əsas məqsədinin türk dünyasını ən vacib iqtisadi, mədəni məkanlardan birinə çevirmək olduğunu dedi. Qazaxıstan dövlətinin başçısı Türküstan şəhərinin türk dünyasının mənəvi paytaxtlarından biri olduğunu bildirdi.***

Sonra Qazaxıstanın qədim Türküstan şəhərinin tarixindən, mədəniyyətindən bəhs edən qısa film nümayiş etdirildi. Qazaxıstanın birinci Prezidenti- Elbası, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev çıxışında Azərbaycan Prezidentini Qələbə münasibətilə təbrik edərək dedi:

- Bu gün mən həm də Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi təbrik edirəm. Xüsusilə qeyd etmək istəyirəm ki, ərazi bütövlüyünün bərpa edilməsi məsələsində Türkiyə önəmli rol oynamışdır.

Nursultan Nazarbayev 2019-cu ildə Bakıda keçirilən VII Zirvə görüşündə Türk Şurasının fəxri sədri seçildiyini və bundan böyük şərəf duyduğunu bildirdi. Nursultan Nazarbayev budəfəki Zirvə toplantısının keçirilməsinin səbəblərindən biri kimi dünyada baş verən dəyişiklikləri, xüsusilə pandemiya ilə mübarizəni qeyd edərək "Türk dünyasının gələcəyi-2040" adlı sənədin hazırlanmasını təklif etdi. O, Türküstan şəhərinin yüksək səviyyəli tədbirlərə ev sahibliyi etməyə hazır olduğunu bildirdi. Qazaxıstanın ilk Prezidenti iqtisadi əlaqələrin əhəmiyyətinə toxunaraq dedi:

- Biz hamımız bu prosesləri həyəcanla izləyir və nəticələri gözləyirdik. Əlbəttə ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi və Rusiyanın dəstəyi ilə Bakı və Yerevan arasında imzalanmış sülh razılaşması böyük İpək Yolunun çiçəklənməsi üçün yeni imkanlara yol açır və Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən istifadə etməklə Xəzər dənizinin rolunu artırır.

Prezident Kasım-Jomart Tokayev: Növbəti çıxış üçün söz Türk Şurasının hazırkı sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə verilir.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.

- Hörmətli Qazaxıstan Respublikasının Prezidenti. Hörmətli həmkarlar.

İlk növbədə, Zirvə görüşünün keçirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüsə görə Nursultan Abışoviç Nazarbayevə təşəkkürümü bildirmək istəyirəm. Nursultan Abışoviç Nazarbayev Türk Şurasının fəxri sədri kimi çox fəal iş aparır və bu Sammitin keçirilməsi bunun bariz təsdiqidir.

Bugünkü Zirvə görüşü 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş Zirvə görüşündən sonra ikinci Zirvə görüşüdür. Bir il əvvəl, keçən ilin aprel ayında Bakıda Azərbaycanın təşəbbüsü ilə COVID-19-a həsr edilmiş Zirvə görüşü keçirilmişdir və bu, özlüyündə bir göstəricidir. Göstərir ki, Zirvə görüşləri müntəzəm olaraq keçirilir və əlbəttə ki, üzv ölkələr arasındakı birliyə bunun çox böyük müsbət təsiri vardır.

Bu ilin sonunda Azərbaycan Türk Şurasındakı sədrliyini qardaş Türkiyəyə təhvil verəcək. Türkiyədə keçiriləcək rəsmi Zirvə görüşündə Azərbaycanın sədrliyi dövründə gördüyü işlərlə bağlı məlumat veriləcəkdir.

## Minsk qrupunun nəticəsi sıfra bərabər olmuşdur

**Bu gün isə fürsətdən istifadə edərək, II Qarabağ müharibəsi haqqında məlumat vermək istərdim. Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərini işğal altında saxlayırdı.**

Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt edilmişdir, bir milyondan çox azərbaycanlı öz doğma torpağından didərgin salınmışdır, qaçqın-köçkün vəziyyətinə salınmışdır. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənistan Azərbaycana qarşı soyqırımı törətmişdir. 1992-ci ildə törədilən Xocalı soyqırımı nəticəsində 600-dən çox günahsız, dinc insan vəhşicəsinə öldürülmüşdür. Onların arasında 106 qadın, 63 uşaq vəhşicəsinə qətlə yetirilmişdir.

Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini daim dəstəkləyiblər. Ancaq bu dəstəyin praktiki həyatda o qədər də böyük əhəmiyyəti yox idi. Çünki məsələ öz həllini tapmırdı. BMT Təhlükəsizlik Şurası - dünyanın ali beynəlxalq qurumu 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Bu qətnamələr 1993-cü ildə qəbul edilmişdir və icrasız qalmışdı. Digər beynəlxalq təşkilatların qərar-qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyirdi və bunun çox böyük siyasi və hüquqi mənası var idi. Halbuki real, praktiki müstəvidə məsələnin həllinə xidmət etmirdi. ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir.



**Ermənistana qarşı işğalla bağlı ciddi təzyiq göstərilsəydi və Azərbaycanın tələbi nəzərə alınıb sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan sülh yolu ilə öz həllini tapa bilərdi**

Məsələnin həlli ilə bağlı 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmışdır və 28 il ərzində fəaliyyət göstərsə də, nəticə olmamışdır. Minsk qrupunun nəticəsi sıfra bərabər olmuşdur. Halbuki Minsk qrupuna həmsədrlik edən ölkələr dünyanın aparıcı ölkələridir, nüvə dövlətləridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Əlbəttə ki, Ermənistana qarşı işğalla bağlı ciddi təzyiq göstərilsəydi və Azərbaycanın tələbi nəzərə alınıb sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan sülh yolu ilə öz həllini tapa bilərdi.

## Bu, Azərbaycan xalqına qarşı təhqir idi

**Əfsuslar olsun ki, bu, baş vermədi. Əksinə, məsələnin dondurulması istiqamətində addımlar atılmışdır. Ermənistan faktiki olaraq danışıqlardan imtina etmişdir.** Əgər əvvəlki illərdə danışıqların imitasiyası ilə məşğul idisə, son iki-üç il ərzində faktiki olaraq açıq, nümayişkaranə şəkildə bildirirdi ki, bir qarış da Azərbaycan torpağı Azərbaycana qaytarılmayacaq. Bundan əlavə, Ermənistan rəhbərinin məsuliyyətsiz və təxribat xarakterli addımları və bəyanatları faktiki olaraq danışıqları mənasız etmişdi. Ermənistan rəhbəri iki il bundan əvvəl bildirmişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Təbii ki, bizim buna cavabımız oldu və ən ciddi cavab döyüş meydanında verildi. Ancaq bu, özlüyündə göstərir ki, Ermənistan rəhbərliyi məsələni həll etmiş hesab edirdi və torpaqları geri qaytarmaq istəmirdi. Ondan başqa, Ermənistanın keçmiş müdafiə naziri, hansı ki, hərbi məğlubiyyətdən sonra vəzifədən azad edildi, Azərbaycanı yeni müharibə ilə hədələyirdi. Amerikada olarkən erməni diaspor təşkilatları ilə görüş əsnasında bəyan etmişdi ki, Ermənistan yeni torpaqlar uğrunda yeni müharibəyə hazırlaşır. Bu, faktiki olaraq, Azərbaycana qarşı çox ciddi, təxribat xarakterli bir addım idi. Bizi hədələyən keçmiş müdafiə naziri hərbi məğlubiyyətə görə vəzifədən uzaqlaşdırıldı.

> *Bizim tarixi şəhərimiz Şuşa noyabrın 8-də işğalçılardan azad edildi və Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı*

Digər təxribat xarakterli addımlardan biri də qədim Azərbaycan şəhəri, bizim mədəni paytaxtımız olan Şuşada qanunsuz xunta rejiminin, keçmiş Dağlıq Qarabağ rejiminin başçısının andiçmə mərasiminin keçirilməsi idi. Bu, Azərbaycan xalqına qarşı təhqir idi. Qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamentinin Şuşa şəhərinə köçürülməsi və parlament üçün binanın inşa edilməsi də, - bu bina indi məhv ediləcək, yaxud söküləcək, - təxribat xarakterli addım idi. Yəni, bütün bu addımlar göstərirdi ki, Ermənistan bizi təxribata çəkir, bizdən sərt reaksiya gözləyir və ondan sonra günahı bizim üstümüzə yıxıb, yenə də məsələni daha 30 il uzatmaq istəyir. Biz təxribata uymadıq. Biz özümüzü təmkinli apardıq, beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğun şəkildə apardıq və belə olan halda Ermənistan keçən ilin yayında bizə qarşı hərbi təxribat törətdi. Ermənistan-Azərbaycan dövlət sərhədində bizim mövqelərimiz atəş altına düşdü. Ermənistan hərbi birləşmələri bizim sərhədimizi keçməyə cəhd göstərdi, bir neçə hərbçimiz həlak oldu. Biz onlara layiqli cavab verdik və onları geri oturtduq. Ancaq biz Ermənistan-Azərbaycan dövlət sərhədini keçmədik. Bir neçə gün davam edən hərbi toqquşma dayandı. Çünki bizim Ermənistan ərazisində müharibə aparmaq niyyətimiz yox idi. Halbuki istəsəydik rahatlıqla Ermənistan ərazisinə daxil ola bilərdik. Ondan bir ay keçəndən sonra - avqust ayında yeni bir təxribat törədildi və Azərbaycana diversiya qrupu göndərildi. Diversiya qrupunun rəhbəri saxlanıldı və ifadə verdi ki, o, terror aktları keçirmək üçün Azərbaycana göndərilmişdir və bu, növbəti təxribat idi. Nəhayət sentyabrın sonlarında bizim hərbi mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə məruz qalmışdır və bunun nəticəsində bir neçə hərbçi və bir neçə mülki şəxs həlak olmuşdur.

Biz təbii olaraq buna adekvat cavab verərək, əks-hücum əməliyyatı keçirib düşməni layiqincə cəzalandırdıq və 44 gün davam edən II Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müharibə dövründə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Bizim tarixi şəhərimiz Şuşa noyabrın 8-də işğalçılardan azad edildi və Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı.

## Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmışdır

**Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri Bəyanat imzalayıblar. Bu Bəyanat əsasında bizim digər rayonlarımız artıq siyasi yollarla Azərbaycana qaytarıldı.**

Beləliklə, məsələ hərbi-siyasi yollarla həll olundu. Artıq tam əminliklə demək olar ki, Dağlıq Qarabağ məsələsi, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmışdır. Dağlıq Qarabağ adında hazırda hər hansı bir ərazi vahidi yoxdur. Azərbaycan bu məsələni həll edib, tarixi Zəfər əldə edib və dağıdılmış ərazilərdə bərpa işləri başlayıb.

Biz müharibənin ilk günündən qardaş Türkiyədən böyük dəstək aldıq. Mənim əziz qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə etdi. Bu siyasi və mənəvi dəstəyin çox böyük əhəmiyyəti var idi. Əziz qardaşım bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu, çox ciddi mesaj idi, ciddi siqnal idi. Bu, bizə imkan verdi ki, əks-hücum əməliyyatını uğurla keçirək, imkan verdi ki, hər hansı bir kənar qüvvə məsələyə müdaxilə etməsin. Mən həmişə demişdim ki, əgər xarici müdaxilə olmasa, Azərbaycan Dağlıq Qarabağ məsələsini qısa müddət ərzində həll edə bilər və belə də oldu. Bu dəstəyə görə qardaş Türkiyəyə və onun hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirmək istəyirəm. Müharibə dövründə və müxtəlif dövrlərdə Prezident Ərdoğanın və Türkiyənin digər rəsmi şəxslərinin çoxsaylı bəyanatları məsələnin həllində xüsusi önəmli rol oynamışdır. Məni və Azərbaycan xalqını Şuşanın azad olunması ilə əlaqədar ilk təbrik edən Prezident Rəcəb Tayyib Ərdoğan olmuşdur. Noyabrın 8-də bu təbriki bizə çatdırmışdır. Türk Şurası sentyabrın 28-də - müharibədən bir gün sonra Azərbaycana dəstək xarakterli açıqlama vermişdir. Ondan sonra müharibə dövründə bir neçə dəfə buna oxşar açıqlamalar vermişdir. Türk Şurasına biz təşəkkürümüzü bildiririk. Digər beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı bizə öz siyasi dəstəyini göstərmişlər.

## Azad edilmiş torpaqlarda hər şey dağıdılıb

**Azad edilmiş torpaqlarda hər şey dağıdılıb. İndi jurnalistlər oraya gəlir, diplomatlar səfərlər edirlər. Görürlər ki, şəhərlər dağıdılıb, evlər dağıdılıb, kəndlər dağıdılıb, tarixi abidələrimiz dağıdılıb. Ağdamı xarici və yerli jurnalistlər Qafqazın Xirosiması adlandırıblar.**

Füzuli şəhəri işğaldan azad olunandan sonra bu şəhərdə bir salamat bina qalmamışdı ki, o binanın damında Azərbaycan bayrağı qaldırılsın. Ermənilər bütün şəhərlərimizi məhv ediblər, bütün tarixi abidələrimizi məhv ediblər, qəbiristanlıqları şumlayıblar, qəbirləri dağıdıblar, 60-dan çox məscidi dağıdıblar və yarımçıq sökülmüş məscidlərdə inək və donuz saxlayıblar. Bu videokadrlar internetdə vardır. Yəni, bu, bütün müsəlman aləminə qarşı təhqirdir, cinayətdir və bütün dünya artıq bunu görür və görməlidir. Biz öz tarixi missiyamızı icra etdik, erməni faşizmini məhv etdik. Hazırda bərpa işlərinə start verilib. Müharibədən sonra bir çox azərbaycanlı mülki şəxs və hərbçi minaya düşərək həlak olub və yaralanıb. Ermənistan bu günə qədər bizə mina xəritələrini vermir. Bu, növbəti hərbi cinayətdir. Ona görə minalardan təmizləmə işi daha çox vaxt aparacaq. Bu işlər başa çatmadan, əlbəttə ki, biz köçkün, qaçqın soydaşlarımızı o torpaqlara qaytara bilmərik.

## Yeni nəqliyyat dəhlizi yaranmaqdadır

**Müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq.**

Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq, görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq.

Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün. Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur. Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmir yolu təmin edilə bilər. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər.

Mən öz çıxışımı yekunlaşdırmaq istəyirəm. Yenə də demək istəyirəm ki, mən öz çıxışımı bu məsələyə həsr etdim. Bu, təbiidir. Çünki dost ölkələrin rəhbərləri məsələnin mahiyyətini dərindən bilməlidirlər. Ümid edirəm ki, növbəti canlı təmaslar əsnasında biz bu məsələni daha geniş formatda müzakirə edəcəyik. Əminəm ki, Türkiyədə keçiriləcək Zirvə görüşündə biz hamımız canlı olaraq iştirak edəcəyik. Biz sədr kimi orada həm görülmüş işlərlə bağlı məlumat verəcəyik, həm də ki, gələcək planlar haqqında danışacağıq. Diqqətinizə görə təşəkkür edirəm.

## Müsahib

**44** *günlük Vətən müharibəsi Azərbaycanın ömrünə qızıl hərflərlə zəfər tarixi yazdı. Torpaqları azad olunan insanlarımız uzun illər çəkdiyi ağrı-acı, həsrətdən sonra Vətənlə birlikdə yenidən doğuldu, 30 il ona unutdurulan doğum günlərini yada saldı, Vətənlə birlikdə yaşadı azadlığını... Bu günlər özünün 68-ci doğum gününü işğaldan azad olunan vətənində - Ağdamda keçirməyi arzu edən yazıçı, millət vəkili Aqil Abbas kimi... Doğum günü ərəfəsində "Həftə içi"nə müsahibə verən Aqil Abbas maraqlı məsələlərə diqqət çəkib.*

# "1 apreldə doğum günümü ilk dəfə qeyd edəcəm"

***- Ömrünün 30 ilini torpaqlarımızın işğal tarixi ilə yaşayan, Ağdamsız qəlbi "dolu" ilə dolan yazıçı, millət vəkili Aqil Abbas yeni yaşını hansı ruhla, hansı hisslərlə qarşılayır?***

- Mən heç vaxt Ağdamsız yaşamamışam və heç vaxt doğum günü keçirmirəm. Bəlkə bu gün kimsə "ad günü" deyib təbrikə gələ bilər, amma pandemiyadır, yəqin ki, heç kəs gəlməyəcək. Evdə otururuq, həmin gün nə bişirsə, onu da yeyirik. Ümumiyyətlə, doğum günü keçirməyi xoşlamıram. Mənim bir sözüm var: bunu povestimdə də yazmışam. Deyirəm ki, nə Məhəmməd peyğəmbərin nəslindənəm, nə də Eynşteynin. Kiməm ki mən, hələ doğum günüm də ola. Sözüm onda deyil. 1 apreldə doğulmuşam, təsadüfdür də, Allahın qismətidir. Başa düşmürəm mənim 68 yaşım var, siz niyə 30 ili deyirsiniz?

***- Son 28-30 illik tariximizdə torpaqlarımızın işğalda qaldığı müddətdə yaşadığınız həyatı, Ağdamsız, o şəhərdən uzaqda qaldığınız illərin ömrünüzə yazdığı yazı, torpaqları işğaldan azad edilən bir ədibin, bir ağdamlının yeni doğum gününün ona hansı yeni bir hissi yaşatmasından danışıram...***

- Mən həmişə Ağdamla yaşamışam. Ayda iki dəfə Ağdam torpağında olmuşam. Ağdamın yox, Ağcabədinin deputatıyam, ora gedəndə çox vaxt qalıram. Həmişə də çörək yeməyə Ağdama gedirəm. Dostlarımı da yığıram başıma, bir yerdə çörək yeyirik. Aprel döyüşlərində də oradaydım, səhərə qədər yatmadım, adamlarla birlikdə oturdum yeməkxanada. Səhərə qədər də özümüz üçün nəsə bişirib yedik. Yəni onu demək istəyirəm ki, Ağdamsız 1 saat da olmamışam.

***- Əslində, torpaqları işğal olunan hər bir Azərbaycan insanı - laçınlı, kəlbəcərli, zəngilanlı, şuşalı, ağdmlı və digər azad edilən rayonlarımızdan olanlar bu işğal tarixində ruhən öz yurdu ilə birgə yaşadı, o yerlərə qayıdacağına inandı...***

- Həmişə inanmışam ki, o yerlərə qayıdacağıq. Torpaqların azadlığına inanmayan adamlar Ağdamsız, Laçınsız qaldı... Dediyim bir söz var, qəzetdə də bu barədə yazmışam, televiziyada da demişəm ki, əgər kimsə Şuşaya qayıdacağına inanmırsa, getsin 2 metr kəndir alıb özünü assın, vəssalam. Buna inanmasaydım özümü asardım. İnsan inamsız yaşasa, o adam deyil.

***- Bir qrup nümayəndə heyəti ilə Ağdama etdiyiniz son səfər sizdə hansı təəssüratları yaratmışdı? Ağdamı hər dəfə belə xaraba görmək sizin üçün nə deməkdir?***

- Bu səfərdən qabaq, Ağdam azad olunandan sonra evimizə getmişəm. Demişdim ki, Ağdam azad olunan kimi birinci İmarətə, sonra Qarahacıya, oradan da evimizə gedəcəyəm. Elə ilk səfərim də İmarətə oldu. Sonra məscidə, oradan evimizə, həyətimizə getdim, Ağdamın küçələrini fırlandım, gəzdim.

Sonra Qarahacı qəbiristanlığına tərəf getdim. Gördüm ki, qəbiristanlıq yoxdur, şumlayıb, yerində taxıl əkiblər. Beləcə, Ağdamı bir gün fırlandım. Oranı səliqiyə salan adamlar - polislər, hərbçilər, ANAMA-nın əməkdaşları, iş görən adamlar məscidin yanında mənim üçün çay da hazırladılar, içdim...



**Aqil Abbas,**
Milli Məclisin deputatı



"İmarət"də olanda bir də gördüm ki, xaricilərdən ibarət nümayəndələr gəldilər. Hikmət Hacıyev onlarla idi. Mənə dedi ki, buraları daha yaxşı bilirsən, sən məlumat ver. Danışdım, onlara ingilis dilində tərcümə elədilər.

İkinci dəfə Ağdama xüsusi nümayəndə heyəti ilə getdik. Orada gəzəndə dostumun oğlu həyətlərndən bir sapılca tapdı. Vaxtilə nənəsi yumurta bişirirmiş o sapılcada. Getdim öz həyətimizə, məktəbimizə, firlandım gəldim. Sonra birgə səfərdə olduğum heyətdən ayrıldım. Rəsmi hökumət nümayəndəsi ilə danışdım ki, Bakıya qayıtmayacağam, Ağcabədiyə gedib orada bayramqabağı şəhid ailələri ilə görüşəcəyəm. Beləcə, nümayəndə heyəti Bakıya qayıtdı, mən də təzədən Ağdamın küçələrində firlanıb öz maşınımla qayıtdım kəndimizə. Sonra gedib Ağdamın Əsədli kəndində dostlarımla çörək yedim.

***- Ağdamın xarabalıqlarını görəndə hansı hissləri yaşadınız?***

- Oraların dağıldığını bilirdim. Birinci dəfə görəndə pis təsir etdi. Ağdamın xarabalıqlarını şəkillərdə, videolarda dəfələrlə görmüşdüm. Ora səfər edəndə təzə bir şey görmədim ki, mənə təəccüblü gəlsin. Bir var qəfil görəsən, bir də var, nə baş verdiyini biləsən.

Birinci dəfə Ağdama gedəndə balaca oğluma zəng elədim ki, oğul, girdim Ağdama və bu sözdən sonra telefonu söndürdüm, kövrəldim. Bir də həyətimizə gedəndə, xanımıma zəng elədim ki, həyətimizdəyəm, kövrəlib telefonu söndürdüm. Daha hönkürüb ağlayım, dizimi yerə qoyub, "Ay dədə heey, ay papa heey, haradasan, ay mama haradasan?" deyib ağlamadım. Ümumyyətlə, bəlkə orada uşağımla danışmasaydım, kövrəlməyəcəkdim.

***- O yerlərin indiki halını görəndə hamımız ağladıq, siz də kövrəlib ağlasaydınız, sanki nə olardı ki?***

- Heç nə. Sadəcə Ağdamda olanda orada oynadım, başladılar ğöz eləməyə ki, oynadı. Mənsum orada çox qəşəng oxudu, özümdən asılı olmayaraq, çiynmdə palto var idi, atdım torpağın üstünə oynadım. Bir ağdamlı, sonra "Qarabağ" komandası çıxıb mənimlə oynadılar. Lağ elədilər ki, bu oynayır, filan edir. Bu mənim ən xoş günümdür. Bu gün də oynamayıb, nə vaxt oynayacağam ki...

***- Kim lağ elədi sizə, nə dedilər?***

- Trol dəstələri var. Onları müəyyən yerlərdən maliyyələşdirirlər ki, hörmətli adamları təhqir eləsinlər. Düzdür, onların bu oyunları mənim üçün heç nədir. Necə deyərlər, it hürər, karvan keçər. Onlar da boş dayanmırlar.

***- Aqil müəllim, torpaqlarımız azad olunandan sonra insanlar öz doğum günlərini də bir başqa cür qeyd edirlər. Sizin doğum gününə münasibətinizdə nə dəyişdi?***

- Hə, bu dəfə doğum günümü keçirəcəyəm. Mirşahin də mənə dedi ki, gedək doğum gününü Ağdamda keçirək. Dedim, ona da bir "əmma" qoşacaqlar. Yəqin ki, ayın 1-də evdə yemək bişirəcəklər. İntəhası, bir az əvvəlkindən yaxşı bişirərlər də, ad günümdür.

***- Ağdamda doğum gününü keçirmək planı nə oldu bəs?***

- Ağdamda keçirəsi olmadıq. Dedim sonra buna da bir söz qoşarlar.

***- Axı siz elə sözlərə fikir verən deyilsiniz...***

- Axır vaxtlar fikir verirəm. Daha qocalmışam, itdən-qurddan özümü qoruyuram.

***- Aqil müəllim, "Dolu" əsərinin birinci hissəsində qəhrəmanların, kənd camaatının ruhları işğalçının qurduğu sərhədləri aşaraq piyada öz doğma torpaqlarına qayıdırlar. Yəqin ki, o əsərin davamı olacaq...***

- "Dolu"nun ikinci hissəsi hazırdır. Siz filmə diqqətlə baxsanız görəcəksiniz ki, axırda "filmin sonu" sözü yazılmır. Bu, dünyada yeganə filmdir ki, bitsə də, "Filmin sonu" yazılmır. Bizim Qarabağla bağlı bitirmədiyimiz işlər var idi. Bilirdim ki, o yerlərə gedəcəyik. Elə də getdik. Görürsən, bu, Allahın vəyhi idi. Necə yazmışdısa, Ağdama da elə piyada, döyüşsüz-filansız getdik.

***- Filmin sonunu necə bitirdiniz?***

- ...Ssenarinin axırında bayrağı sancan oğlan şəhid olur. O uşaq həmişə anasına deyirdi ki, erməni bayrağını gətirib atacağam sənin ayağının altına. Həmin uşaq şəhid olur. Komandiri o erməni bayrağını gətirib atır şəhidin anasının ayağının altına. Deyir, bu sənin oğlunun vəsiyyəti idi və flim qurtarır...

***- Siyasi partiyaların, QHT-lərin Ağdama son səfərindən sonra Arif Hacılı bu səfərdə iştirak edənləri qınadı və bunu siyasi oyunun tərkib hissəsi adlandırdı. Buna firkiniz nədir?***

- Siyasi partiyaların birlikdə Qarabağa səfər etməsi çox yaxşı tədbir idi. Necə ki, müharibədə xalq, ordu, siyasi partiyalar bir yerdə idi, müharibədən sonra da işğaldan azad olunmuş ərazilərə birlikdə səfər etdilər. Burada pis nə var ki? Siyasi partiyalar bir daha sübut elədilər ki, biz xalq olaraq yenə bir yerdəyik. Hələ bundan sonra Qarabağı bərpa etməliyik. Bunun üçün də bir yerdə olmalıyıq. Çox ağıllı bir iş idi, bunu yalnız alqışlamaq olar. Arif Hacılının niyə elə dediyini özündən soruşarsınız.

***- Bilirik ki, işğaldan azad olunan şəhərlər, kəndlər, torpaqlarımız yenidən bərpa olunmalıdır. Belə bir ərəfədə ölkəmizə qarşı daxildən, xaricdən hansısa əks-təsirlər var?***

- Bu gün həm daxildən, həm də xaricdən təzyiqlər var. Azərbaycanda olan "5-ci kolon" deyilən qüvvələr sakit oturmur. O qədər kərtənkələlər var ki. Bu hökumət, bu dövlət o təzyiqlərə cavab verib, bundan sonra da verəcək. Dövlətimiz qüdrətlidir, güclüdür və o dağıdılan əraziləri bərpa edəcək, tikəcək, quracaq. Biz özümüz də tikəcəyik. Elə hər şeyi dövlət eləməli deyil ki.

> "
> *Nə Məhəmməd peyğəmbərin nəslindənəm, nə də Eynşteynin. Kiməm ki mən, hələ doğum günüm də ola*

Ağdamdakı evimi dövlət niyə tikməlidir? Eləcə də dostlarımın, qohumlarımın evlərini. Gedib öz evimi özüm tikəcəyəm. Dövlət getsin məktəbləri tiksin, qazını çəksin, suyunu çəksin, iş yerləri qursun. Dövlət kimin imkanı yoxdursa, ona ev tikməlidir. Daha ucdantutma hamıya ev tikməli deyil ki.

***- Xankəndidə qalıb-yaşayan ermənilər əvvəlki cəfəng iddialarından əl çəkmirlər. İndi də rus sülhməramlıları ilə "dostlaşıb" guya rus dilini ikinci dövlət dili kimi təsdiqləyiblər. Bu barədə nə düşünürsünüz?***

- Qarabağda 60 min erməni yaşayır. İstəsələr rusca danışsınlar, istəsələr ingiliscə. Əgər vətəndaşlığımızı qəbul eləməsələr, rədd olub gedəcəklər...

✍ ***Tahirə Qafarlı***

# "Bütün erməni hərbi birləşmələri hələ də Azərbaycandan çıxarılmayıb"

***"Azərbaycan bütün hərbi əsirləri təhvil verib. Lakin 10 noyabr bəyannaməsinin 4-cü bəndinə əsasən bütün erməni hərbi birləşmələri Azərbaycan ərazisindən çıxarılmalıdır və bu müddəa hələ də yerinə yetirilməyib". Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev deyib. O qeyd edib ki, sözügedən bəndin ikili izahı yoxdur:***

"Qarabağın Rusiya sülhməramlılarının yerləşdirildiyi hissəsi beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazisidir. Erməni hərbçilər məsələsi ilə bağlı danışıqlar aparılır və müsbət nəticələr əldə edilərsə, o zaman Azərbaycan da xoşməramlı digər addımların mümkünlüyünü nəzərdən keçirə bilər. Təbii ki, 2020-ci ilin dekabrında 3 azərbaycanlı hərbçini və bir mülki işçini öldürən ermənilərin məsələsi də gündəmdədir. Mənə maraqlıdır ki, amerikalı qanun yazarı Bob Menendesin cəzası verilməmiş cinayət məsələsinə yanaşması necədir? Açığı bu ikiüzlü "qanun yazarı" məni o qədər də narahat etmir". Minalı ərazilərlə bağlı məsələyə də diqqət yetirən F. Şəfiyev bildirib ki, bu məsələ 10 noyabr bəyannaməsində öz əksini tapmasa da mina kirlənməsi son dərəcə vacib məsələdir və eyni zamanda bu problem regionda kommunikasiyaların açılmasına mane törədir: "Kommunikasiya məsələsi isə 10 noyabr bəyannaməsində öz əksini tapıb. Ermənistan tərəfdən adekvat addımlar atılmazsa, Azərbaycan xoşməramlı jestləri dayandırmalıdır. Bundan əlavə, Ermənistan minalanmış ərazilərinin xəritələrini verməkdən imtina edəcəyi təqdirdə bu ölkəni dəymiş maddi ziyan və minaların yerləşdirilməsi ilə bağlı məsuliyyətə cəlb etmək üçün hüquqi fəaliyyətləri davam etdirmək lazımdır".



**Fərid Şəfiyev,**
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri

> "
> *Ermənistan tərəfdən adekvat addımlar atılmazsa, Azərbaycan xoşməramlı jestləri dayandırmalıdır*

✍ ***Vüsal***

# İşğaldan azad Kəlbəcər

## Rayonun gələcək inkişaf perspektivləri



**Aqil Məmmədov,**
Milli Məclisin deputatı

◂ əvvəli 1-ci səhifədə

Buna görə də aylar, illər keçdikcə rayonun yeni-yeni iqtisadi-sosial inkişaf imkanları üzə çıxacaq... 1989-1990-cı illərdən bəri ermənilərin separatçılıq və işğalçılıq hərəkətləri ilə əlaqədar Kəlbəcərdə də quruculuq, abadlıq, təsərrüfat, sənaye və s. işləri tənəzzülə uğramağa başlayıb. Kəlbəcər rayonu cəmi 1 il 5 ay ərzində müstəqil Azərbaycan Respublikasının nəzarətində olub. Və təbii ki, bəhs edilən illərdə də erməni problemi göz açmağa, quruculuq, inkişaf barədə düşünməyə macal verməyib...

Sovet dövründə "Kommunist" qəzetinin Qarabağ üzrə xüsusi müxbiri olan rəhmətlik tanınmış jurnalist Ziyəddin Sultanovun 1989-cu ilin noyabrında növbəti Kəlbəcər səfərindən sonra dərc etdiyi "Dağlara qış gəlir" adlı məqaləsindən bir neçə ibrətamiz parça bir daha bu rayonun xalqımız, dövlətimiz üçün nə qədər böyük bir xəzinə olduğunu təsdiqləyir və eyni zamanda Kəlbəcərə Böyük Qayıdış proqramının nə dərəcədə çətin, mürəkkəb bir vəzifə olduğunu, bunu icra edəcək məmurların isə nə qədər ağır və məsul bir işə cavadeh olduqlarını xatırladır:

"Kəlbəcər yaylaqlarında 400-dən çox mineral bulaq var. Hər il təkcə 4 milyard litr İstisu axıb çaylara tökülür. "İstisu" mineral sudoldurma zavodunun illik istehsal gücü isə 19 milyon butulkadır. Ona görə də yaxın vaxtlarda həmin rəqəmi 100 milyon butulkaya çatdırmaq üçün imkanlar, ehtiyat mənbələri götür-qoy edilir...

... Rayon partiya komitəsinin katibi Münəvvər Əliyeva nigaran görünürdü. Səbəbini soruşduq.

- Bilirsinizmi, - dedi. - Artıq "İstisu" sanatoriyası ilboyu fəaliyyət göstərir. İstirahət etmək istəyənlər çoxdur. Yataq və müalicə korpusları da xəstələri qəbul etməyə tam hazırdır. Lakin məsələ burasındadır ki, yolun uzaqlığı, həm də narahatlığı müəyyən çətinlik törədir. Katibin narahatlığını anlamaq çətin deyil. Ona görə də sanatoriyanın baş həkimi ilə təcili tədbirlər müəyyənləşdirilir, vəzifələr bir daha konkretləşdirilir. Axı Dəlidağın qoynunda yerləşən sanatoriyanı ilboyu işlətmək həqiqətən ciddi hazırlıq, səy və qayğı tələb edir...

...Son günlər havaların birdənbirə dəyişməsi, dağlarda qarlı-çovğunlu günlərin başlanması adamları istər-istəməz həyəcanlandırmışdır. Axı dumanda, qarda vertolyot uçmur. Yeganə yol - Laçın yolu isə çox uzaq, həm də narahatdır(1989-cu ilin yayından erməni ekstremist və terrorçularının mütəmadi hücumları nəticəsində Tərtər-Ağdərə-Kəlbəcər yolu azərbaycanlılar üçün bağlanmışdı-S.L.). Bəs rayona ayrılmış ərzaq mallarını, tikinti materiallarını və s. necə gətirməli?..

***

...İndiyə kimi Kəlbəcər kimi qənirsiz gözəlliyi, saf havası, minbir nəğmə ilə dil açan gülləri, çiçəkləri, meşələri olan bir rayonda cəmi 2 min arı ailəsi saxlanılırdı. Halbuki heç bir xüsusi zəhmət və xərc tələb etməyən arıçılıq bu yerlərdə ənənəvi məşğuliyyət hesab edilib. Bu məsələ də özünün uğurlu həllini tapmaqdadır. Yaxın vaxtlarda ixtisaslaşdırılmış arıçılıq təsərrüfatları yaratmaqla arı ailələrinin sayını 50 minə çatdırmaq qərara alınmışdır...

***

...Ala göllər Sarıyer yaylağında, dəniz səviyyəsindən 3500 metr yüksəklikdə yerləşir. Deyilənlərə görə, ümumi sahəsi Göy göldən 5 dəfə böyükdür. Saf dağ bulaqlarının axıb töküldüyü göl forel balığı ilə çox zəngindir. Lakin indiyə kimi həmin qiymətli ehtiyat mənbələrindən demək olar ki, istifadə edilməmiş, təsadüfi adamlar buranı alver mənbəyinə çevirmişlər. Mütəxəssislərin hesablamalarına görə, Ala göllərdə ildə 150-200 ton forel balığı yetişdirmək mümkündür. Həmin məqsədlə bu yaxınlarda orada "Balıqçı evi" tikilmişdir...".

Kəlbəcərin Tərtər, Tutxun, Lev, Zəylik, Keşdək, Qaraağac və s. çayları da, Böyük Alagöl, Kiçik Alagöl, Qanlıgöl, Dibgöl, Əyrigöl, Naxırgöl, Böyükgöl və s. kimi bir çox göllərində də onlarla növ, o cümlədən qızılxallı balıq, forel tipli nadir balıqlarla zəngindir... Rayonun gölləri arasında daha çox balıqçılıq potensialına malik isə elə mərhum həmkarımızın vurğuladığı Ala göllər hövzəsidir.

■ **2013-2020-ci illərdə Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı olmuş, hazırda Milli Məclisin 123 saylı Kəlbəcər seçki dairəsindən deputatı Aqil Məmmədov "Həftə içi"nə açıqlamasında vurğulayıb ki, Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağdakı şanlı qələbəmizdən sonra digər rayonlarımız kimi, Kəlbəcər rayonu ərazisində də bəzi dövlət qurumları artıq fəaliyyətə başladığından rayonun iqtisadi potensialının yenidən araşdırılması və qiymətləndirilməsi işlərinə start verilməkdə, layihələndirmə proseslərinə başlanmaqdadır.** "Bu günlərdə dövlət başçısı Kəlbəcərə Göygölün Toğanalı kəndi istiqamətindən uzunluğu ümumilikdə 190 kilometrə yaxın olacaq yeni yolun çəkilməsi ilə bağlı göstəriş verib. Və həmin yolun çəkilişi ilə bağlı ilkin layihələndirmə işlərinə artıq start verilib. Tezliklə istifadəyə veriləcək bu yol Kəlbəcərdə bərpa-quruculuq işlərini sürətləndirməklə yanaşı, gələcəkdə o dağlara, meşələrə, yaylaqlara səyahət edəcək daxili və xarici turistlər üçün də əlverişli və eyni zamanda gözəl və mənzərəli bir yol olacaq. Təbii ki, dövlətimizin uğurlu siyasəti sayəsində yaxın zamanda relyef baxımından daha rahat olan tarixi Tərtər-Ağdərə-Kəlbəcər yolu da nəzarətimizə veriləcək ki, bu da rayonumuzun gələcək iqtiasadi inkişafında öz müsbət rolunu oynayacaq".

> "
> *Yaxın zamanda relyef baxımından daha rahat olan tarixi Tərtər-Ağdərə-Kəlbəcər yolu da nəzarətimizə veriləcək ki, bu da rayonumuzun gələcək iqtiasadi inkişafında öz müsbət rolunu oynayacaq*
> "

Deputat artıq Kəlbəcərin məşhur İstisu ərazisində tədqiqat işlərinə başlandını da qeyd edib. "Aidiyyəti qurumlar artıq öz nümayəndələrini İstisuya göndəriblər. İlk laborator analizi 1927-ci ildə aparılmış İstisu müalicəvi mineral suyunun daha müasir üsullarla analizinə başlanılıb. Hələ o vaxtkı müayinələr göstərib ki, keyfiyyətinə, dadına və müalicəvi xüsusiyyətlərinə görə İstisu dünya mineral suları arasında ən birincilərdən biridir. Eyni zamanda İstisu gur bulaqlı, yəni sutkalıq buraxıcılıq qabiliyyəti yüksək olduğuna görə də biz bu təbii sərvətdən mümkün qədər səmərəli istifadə etməliyik. Və bu istiqamətdə dövlətimizin müvafiq proqramı var. İnşallah, bunlar hamısı mərhələli şəkildə həyata keçiriləcək. Bu da gələcəkdə nəinki respublikanın, xarici ölkələrin əhalisinin də Kəlbəcərə cəlb olunmasına şərait yaradacaq və bununla rayonda turuzmin inkişafına da təkan verəcək. Bu da, sözsüz ki, dövlətimizin büdcə gəlirlərinin artmasında da öz rolunu oynayacaq. Onu deyim ki, Kəlbəcərin coğrafi mövqeyi, onun zəngin və qeyri-adi relyefi, dəniz səviyyəsindən 3700 metrdən çox uca qarlı zirvələri əsrarəngiz, bənzərsiz təbii gözəlliyi, həmçinin çoxsaylı və maraqlı tarixi abidələri burada həm yay, həm də qış turizmi üçün geniş imkanlar açır...

Ölkə başçısı işğaldan azad bölgələrin, o cümlədən Kəlbəcərin də bərpası, qurulması və gələcək inkişafı üçün öz lazımi göstəriş, tapşırıq və tövsiyələrini verib. Və inşallah, torpaqlarımızın azadlığı kimi bu işlər də zaman-zaman öz həllini tapacaq...". Biz də ümid edək ki, yaxın illərdə jurnalist kimi Kəlbəcərə sərbəst şəkildə səyahət edərək bilavasitə o dağlardakı, meşələrdəki quruculuq meydanlarından reportajlar, araşdırmalar hazırlayacağıq...

✍ ***Sultan Laçın***

# İkili diplom - tələbələr üçün böyük şans

## Layihə

***Bu gün Azərbaycanın bəzi ali təhsil müəssisələrində təhsil alan tələbələr bir deyil, iki universitetin diplomunu əldə etmək imkanına malikdirlər. Bu qayda Azərbaycanda beynəlxalq ikili diplom proqramları tətbiq edilən ali məktəblərə şamil olunur. Məsələn, Bakı Ali Neft Məktəbi magistratura səviyyəsində Neft-qaz mühəndisliyi və Kimya mühəndisliyi ixtisasları üzrə Böyük Britaniyanın Heriot Vatt Universiteti ilə ikili diplom əməkdaşlığı edir. Bundan başqa, ikili diplomlu Neft və Qaz Menecmenti üzrə yeni MBA proqramı tədris edilir.***



**Son illər Azərbaycanda beynəlxalq ikili diplom proqramlarına qoşulan ali məktəblərin sayı artmaqdadır**

Azərbaycan Dövlət İqtisad Universitetində bakalavr səviyyəsi üzrə Fransanın Montpellier Universiteti, magistratura səviyyəsi üzrə Türkiyənin Uludağ Universiteti, Litvanın Mikolas Romeris Universiteti (MRU) ilə ikili diplom proqramları həyata keçirilir.MBA proqramı üzrə İsveçrənin UBİS (University of Business and International Studies) Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (BBTU) və ABŞ-ın Linkoln Universiteti ilə ikili diplom proqramı tətbiq olunur. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Fransanın Strazburg və Renn 1 Universitetləri ilə ikili diplom proqramları həyata keçirilir. Hazırda ADNSU Corciya Dövlət Universiteti (ABŞ), Zigen Universiteti(Almaniya), Ploeşti Neft və Qaz Universiteti (Rumıniya), Tronheym Şəhər Elm və Texnologiya Universiteti (Norveç), Rusiya Dövlət Neft və Qaz Universiteti, Tümen Rusiya Dövlət Neft və Qaz Universiteti (Rusiya), Genuya Universiteti (İtaliya), Nitsa Sofiya-Antipolis Universiteti (Fransa), Afina Milli Texniki Universiteti (Yunanıstan), Xəzər Dövlət Texnologiya və Mühəndislik Universiteti (Qazaxıstan) kimi xarici ali məktəblərlə sıx əməkdaşlıq edir. Eyni zamanda Almaniyanın Zigen Universiteti ilə Biznesin təşkili üzrə birgə bakalavr (BBA), ABŞ-ın Corciya Dövlət Universiteti ilə Biznesin təşkili üzrə birgə magistr proqramları da (MBA) xüsusi qeyd etmək olar.

Yeri gəlmişkən, ölkəmizdə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" nın təsdiq olunmasından sonra bu istiqamətdə görülən işlər daha da sürətləndirilib. Belə ki, Nazirlər Kabineti tərəfindən "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyələrinin seçim Qaydaları" və "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi Qaydaları", həmçinin "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın İdarəetmə Qrupunun Əsasnaməsi" təsdiq edilib.Sözügedən Dövlət Proqramı çərçivəsində hədəf ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir. Bu istiqamətdə əcnəbi professor-müəllim heyətinin ölkəmizin ali təhsil müəssisələrində tədris prosesinə cəlb olunması müasir tədris texnologiyalarının daha sürətli yayılmasına şərait yaratmaqla yanaşı, təhsillərini Azərbaycan Respublikasında davam etdirən gənclərə də yeni imkanlar açacaq.

Proqramın icra dövrü ərzində yerli ali təhsil müəssisələrində 5 beynəlxalq ikili diplom proqramı təsis olunması planlaşdırılıb. Sözügedən proqramların seçimində əsas meyar kimi xarici tərəfdaş ali təhsil müəssisəsinin beynəlxalq reytinq siyahılarında yer alması, bakalavr ali peşə-ixtisas dərəcəsi və magistr ali elmi-ixtisas dərəcəsi vermək səlahiyyətinin onun fəaliyyət göstərdiyi ölkənin müvafiq dövlət qurumları, keyfiyyət və akkreditasiyaya məsul aidiyyəti təşkilatları tərəfindən tanınması kimi şərtlər öz əksini tapır.



**Nadir İsrafilov,**
Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini, təhsil eksperti

> *Bu gün Azərbaycanın təhsil sektorunda aparılan islahatlar Avropa təhsilinə inteqrasiyanı xeyli sürətləndirib*

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini, təhsil eksperti Nadir İsrafilov bildirib ki, beynəlxalq ikili diplom proqramlarının təsis edildiyi Azərbaycan ali təhsil müəssisələrində əmək fəaliyyətinə cəlb edilməsinə şərait yaratmaqla yanaşı, ali təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, insan kapitalının inkişaf etdirilməsi, strateji əhəmiyyət kəsb edən sahələr üzrə milli kadrların yetişdirilməsi baxımından da olduqca faydalıdır:** "İkili diplomlar universitetlərin rəqabət qabiliyyətini artırırmaqla yanaşı, tədris proqramlarının beynəlmiləlləşməsi, ali təhsil müəssisəsinin ümumavropa məkanına daxil olması, tədris proqramlarının təkmilləşdirilməsi və keyfiyyətinin təmin olunması, metodik və araşdırma fəaliyyətinin keyfiyyətinin artırılması, universitetdə infrastrukturun və idarəetmənin təkmilləşdirilməsi, Boloniya prosesindən irəli gələn dəyişikliklərin təcrübədə qavranılmasına kömək edir. Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 16 noyabr 2018-ci il tarixli Sərəncamına əsasən, beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi universitetlərdə müvafiq ixtisaslar üzrə tədris proqramları xarici ali təhsil müəssisələrinin təcrübəsi əsasında hazırlanmaqdadır. Bu gün Azərbaycanın təhsil sektorunda aparılan islahatlar Avropa təhsilinə inteqrasiyanı xeyli sürətləndirib. Qeyd edək ki, inteqrasiya sahəsində praktik fəaliyyətin əsasında duran

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

məsələlərdən biri xaricdə təhsil, digər isə ikili diplom istiqamətidir. İkili diplom proqramları əslində "2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın bir növ davamı olub, Azərbaycan vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə hazırlanıb. Bu forma birgə inteqrasiya olunmuş təhsil proqramını həyata keçirən iki və daha çox universitet tərəfindən rəsmi şəkildə verilən iki və ya daha çox milli diplomdur".

Onun sözlərinə görə, Avropa Birliyinin birgə diplomların tanınması (qəbul edilməsi) ilə bağlı tövsiyələrində qeyd olunur ki, birgə diplom ikidən az olmayan universitet və ya universitet ilə universitetlər tərəfindən və ya digər müəssisələrin yardımı ilə hazırlanan və ya həyata keçirilən təhsil proqramı əsasında fəaliyyət göstərən digər müəssisə tərəfindən verilən birgə diplom kimi başa düşülməlidir: "Bu, tələbələrə Avropa, eləcə də dünya universitetlərinə açılmaq üçün əlavə üstünlüklər yaradır.

Beynəlxalq ikili diplom proqramlarının təşkili və proqramda nəzərdə tutulan digər vəzifələrin reallaşdırılması xarici ali təhsil müəssisələrində çalışan azərbaycanlı mütəxəssislərin beynəlxalq ikili diplom proqramlarının təsis edildiyi Azərbaycan ali təhsil müəssisələrində əmək fəaliyyətinə cəlb edilməsinə şərait yaradacaq".

■ **Məsələyə münasibət bildirən təhsil eksperti Kamran Əsədov deyib ki,hazırda ikili diplom birgə təhsil proqramlarının həyata keçirilməsinin ən geniş yayılmış formasıdır: "İkili diplom (üçlü və s.) -birgə inteqrasiya olunmuş təhsil proqramını həyata keçirən iki və daha çox universitet tərəfindən rəsmi şəkildə verilən iki və ya daha çox milli diplomdur.**

İkili diplomlar universitetə nə verir? Rəqabət qabiliyyətini artırır, tədris proqramlarının beynəlmiləlləşməsi, ali təhsil müəssisəsinin ümumavropa məkanına daxil olması, tədris proqramlarının təkmilləşdirilməsi və keyfiyyətinin təmin olunması, metodik və araşdırma fəaliyyətinin keyfiyyətinin artırılması, universitetdə infrastrukturun və idarəetmənin təkmilləşdirilməsi, rəhbər və müəllimlərin yeni bacarıqları, tədrisin keyfiyyətinin yüksəldilməsi və s.İkili diplom Azərbaycan ali təhsilinin beynəlxalq imici üçün də çox vacibdir. Bizim diplomların xarici ölkələrdə də qəbul edilməsi istiqamətində mühüm addımdır.

Azərbaycanda təhsil alan bir çox kadrlar Avropaya işləməyə gedirlər və Azərbaycanda aldıqları diplomun Avropada tanınmaması problemi ilə üzləşirlər. Bu baxımdan, ikili diplomların tətbiqi olduqca vacibdir. İkincisi, ikili diplomların verilməsində təhsil standartlarının Avropa təhsil sisteminə uyğunlaşdırılması məsələsi də əsas şərt kimi qoyulub. Bu da bilavasitə Azərbaycan təhsil sisteminin yaxşılaşdırılmasına xidmət edir".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Azərbaycan iqtisadiyyatı əvvəlki səviyyəyə nə zaman qayıdacaq

**Dünya Bankı Azərbaycan iqtisadiyyatının 2022-ci ilin sonuna pandemiyadan əvvəlki səviyyəyə qayıdacağını proqnozlaşdırır. Bu barədə Dünya Bankının region üzrə dərc olunmuş yeni hesabatında deyilir. Hesabatda qeyd olunub ki, Azərbaycanda COVID-19-a qarşı peyvənd təşəbbüsünün erkən başlanması və Ermənistanla münaqişədən sonra ölkə ərazisində başlayan yenidənqurma işlərinə böyük investisiyaların yatırılması ölkə iqtisadiyyatının bərpasının gözləniləndən daha sürətli baş verəcəyini göstərir.**



"2021-ci ildə daxili tələbatın sürətlənməsi iqtisadi böyüməni dəstəkləyəcək, lakin bu, sağlamlıq vəziyyətinin yaxşılaşdırılması və dövlət xərclərinin artması ilə şərtlənəcək. Yüksək neft qiymətlərinin maliyyə kəsirini azaldacağını və cari əməliyyatlar hesabın profisitə qayıtmasına kömək edəcəyi proqnozlaşdırılır.

2021-ci ildən sonra böyük struktur islahatları olmadan iqtisadi dirçəlişin sürətinin neft hasilatındakı uzunmüddətli bərpa və gözlənilən fiskal siyasətin sərtləşdirilməsi (artan maliyyə təzyiqləri fonunda) nəticəsində orta səviyyədə olacağı ehtimal edilir", - hesabatda qeyd olunur.

Qeyd edək ki, Dünya Bankının yeni proqnozuna görə, 2021-ci ildə Azərbaycan iqtisadiyyatı 2,8%, 2022-ci ildə isə 3,9% artacaq.

Dünya Bankı bu il Azərbaycanda istehlak qiymətləri indeksinin artımının (inflyasiya) 3,9% səviyyəsində olacağını proqnozlaşdırır. Banka görə, ölkədə yanacağın bahalaşması və tələbatın bərpa olunmağa başlaması inflyasiyanın səviyyəsini orta müddətdə artıracaq.

Qeyd edək ki, Dünya Bankı 2022-ci ildə ölkədə inflyasiyanın 3,2%, 2023-cü ildə isə 3% təşkil edəcəyini proqnozlaşdırır. Xatırladaq ki, 2020-ci ildə Azərbaycanda inflyasiya 2,8% təşkil edib. Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov faiz dəhlizinin parametrlərinə dair sonuncu mətbuat konfransında ölkədə inflyasiyanın 2021-ci ildə 4% diapazonunda formalaşacağını bildirmişdi.

Dünya Bankı dövlətin maliyyə sektoruna dəstək tədbirlərini ləğv etdikdən sonra Azərbaycanda bəzi banklarda kapital və gəlirlilik nisbətlərinin pisləşəcəyini istisna etmir. Bu barədə Dünya Bankının region üzrə dərc olunmuş yeni hesabatında deyilir.

Hesabata görə, sözügedən proqnozun pisləşməsi riskləri orta müddətdə əhəmiyyətli dərəcədə qalır. "Neft bazarında mövcud qiymət və təklif tarazlığı ("equilibrium") kövrəkdir və əsasən "OPEC+" razılaşmalarından asılıdır. Bundan əlavə, pandemiyanın təkamülü hələ də qeyri-müəyyəndir və vaksinasiyanın sürətindən asılı olacaq. Nəhayət, regional geosiyasi risklər yaxın gələcəkdə yüksək səviyyədə qalacaq. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) əhəmiyyətli ehtiyatları (2020-ci ilin sonunda ÜDM-in 100%-dən artıq - red.) iqtisadiyyatı bu risklərdən qorumağa kömək edəcək", - hesabatda bildirilir. Qeyd edək ki, 2021-ci il yanvarın 1-ə Neft Fondunun aktivləri 43 564,3 mln. ABŞ dolları təşkil edib.

✍ **Sevinc**

## XƏBƏRİNİZ OLSUN...

■ Sumqayıtda bir müddət əvvəl koronavirus diaqnozu ilə xəstəxanaya yerləşdirilən 1972-ci il təvəllüdlü Nəzakət Hacıyeva dünyasını dəyişib. O, Sumqayıt şəhər 28 nömrəli məktəbin fizika müəllimi idi və onun çalışdığı təhsil müəssisəsi ötən gündən distant təhsilə keçib. Qeyd edək ki, Sumqayıtda indiyədək 9 nəfər təhsil işçisi koronavirusdan vəfat edib.

■ Martın 30-da Xocavənd rayonu ərazisində xidmətdən kənar vaxtı göldə çimməyə cəhd göstərən Azərbaycan Ordusunun hərbi qulluqçusu gizir Əliyev Heydər Rövşən oğlu boğularaq ölüb. Bu barədə hafta.az-a Müdafiə Nazirliyindən bildirilib. Faktla bağlı araşdırma aparılır.

■ Nyu-York ştatında yeddi yaşlı uşağı zorlamada ittiham ediblər. İnsident Şükranlıq günü yaşanıb. Lakin uşağın adı açıqlanmır. Vəkil Entoni Martoun bu ittihamı absurd adlandırıb. "Çünki uşaq nə etdiyini heç anlamır da. İttiham tərəfi uşağın həqiqətən də bunu etdiyini sübut etməlidir", - deyə hüquqşünas bildirib.



■ Bakıda rayonlar üzrə bu dəfə də ən çox koronavirusa yoluxma Binəqədi rayonunda qeydə alınıb. Belə ki, rayonda yoluxma 14,9 faiz təşkil edir. Xətaidə 13,3 faiz, Yasamalda 12,3 faiz, Sabunçuda 10,7 faiz, Nərimanovda 8,3 faiz, Suraxanıda 8,1 faiz, Nəsimidə 8,0 faiz, Nizamidə 7.0 faiz, Xəzərdə 6,9 faiz, Səbaildə 5,1 faiz, Qaradağda 4,9 faiz, Pirallahıda 0,5 faiz təşkil edib.

■ Qarabağda ən azı iki DOST mərkəzinin olacağı planlaşdırılır. Bunu DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov bildirib. O qeyd edib ki, mərkəzlərdən biri Şuşa şəhərində yerləşəcək: "Digər mərkəz isə Cəbrayıl, yaxud Füzuli şəhərində inşa ediləcək. Hələlik bunların üzərində işlər aparılır. Artıq Şuşa şəhərində olacaq DOST mərkəzinin layihələndirilməsi prosesi gedir".



■ Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə verilən təqaüd büdcə xərclərinin iqtisadi təsnifatına daxil edilib. Nazirlər Kabineti bununla bağlı "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" qərarında müvafiq dəyişiklik edib.

■ Gürcüstan Baş nazirinin müavini, maliyyə naziri İvane Maçavariani istefa verib. Nazir bu barədə özünün "Facebook" hesabında bildirib. O qeyd edib ki, ötən ilin sonlarında istefa verməyi planlaşdırsa da, 2021-ci ilin böhran büdcəsinin təsdiqlənməsi prosedurları ilə əlaqədar bir qədər gözləməli olub.

■ Portuqaliya millisinin futbolçusu Kriştiano Ronaldo qeyri-adi göstəriciyə imza atıb. Hücumçu ardıcıl 18 ildə yığmada qol vurub. O, 2021-ci ildə ilk qolunu Lüksemburqla DÇ-2022-nin seçmə mərhələsinin oyununda (3:1) rəqib qapısından keçirib. Bunadək Ronaldo ardıcıl 17 təqvim ilini qolsuz tərk etməyib.

## Müsahib

***Arıçılıq Azərbaycanda ən qədim təsərrüfat sahələrindən biri sayılır. Ölkəmizdə arıçılığın inkişaf etdirilməsi üçün kifayət qədər əlverişli şərait mövcuddur. Son illər bu sahəyə diqqətin artırılması arıçılıqla məşğul olanların sayına müsbət təsir göstərib. Hazırda isə Azərbaycan arıçıları xarici bazara çıxış imkanlarını genişləndirmək üçün yeni yollar axtarırlar. "Həftə içi" qəzeti Azərbaycan Arıçılar Assosiasiyasının prezidenti Bədrəddin Həsrətovla ölkəmizdə arıçılığın mövcud vəziyyəti, problemlər, gələcək perspektivlər və digər məsələlər ətrafında söhbət aparıb.***



**Bədrəddin Həsrətov,**
Azərbaycan Arıçılar
Assosiasiyasının prezidenti

# Qarabağda arıçılığın inkişafına dair proqram hazırlanır

***- Bədrəddin müəllim, bu gün Azərbaycanda arıçılığın inkişafı ilə bağlı vəziyyət necədir?***

- Son illər arıçılığın inkişafında müsbət dəyişikliklər var. Bildiyiniz kimi, 2018-ci ildə ölkə Prezidenti arıçılığın inkişafının stimullaşdırılması üçün sərəncam imzalamışdı. Sərəncama görə, arıçılara dəstək kimi dövlət büdcəsindən subsidiya ayrılması qərara alındı. Subsidiyalaşmanı bizim assosiasiya təklif etmişdi. Biz təşəkkür edirik ki, ölkə rəhbərliyi buna qarşılıq verdi və hər arı ailəsinə 10 manatdan subsidiya verilməsi nəzərə alındı. Düzdür, bəzən bu vəsaitin az olduğu dilə gətirilir. Amma mənim fikrimcə, əsas odur ki, dövlət bizə bir manat da versə, bunu qayğı kimi qəbul etməliyik. Konkret son 3 ili götürsək, Azərbaycanda təxminən 300 min arı ailəsindən say 500 minə çatıb. Eyni zamanda, arıçıların da sayı artıb. Azərbaycanda arıçılıqla məşğul olanların sayı 20 minə yaxınlaşır.

Bu isə o deməkdir ki, artıq büdcədən 5 milyon manat arıçılığın stimullaşdırılmasına pul ayrılır. Hesab edirəm ki, bu vəsait Azərbaycan arıçı ailəsinə gedir. Yəni, bunu hər arıçının cibinə deyil, ümumilikdə arı ailəsinə gələn pul sayıram. Ona görə də üç və ya beş milyon manatın bu sektorun dirçəlməsinə müəyyən qədər təsiri var.

Subsidiyanın verilməsinin daha bir üstün tərəfi odur ki, arı ailələrinin dəqiq qeydiyyatı aparılır. Son illərədək bu sahədə fərqli rəqəmlər var idi və identifikasiya kodlarının verilməsi vəziyyəti daha real qiymətləndirməyə imkan yaratdı. Belə ki, identifikasiya kodları veriləndən sonra bütün pətəklərin



üzərinə xüsusi barkodlar vurulur. Bu o deməkdir ki, artıq "Elektron Kənd" təsərrüfatı portalında həmin arı ailəsi barədə bütün məlumatlar mövcuddur. Deməyim odur ki, arıçılığa dövlət dəstəyi bu işə marağı artırıb. Eyni zamanda, ölkədə bala olan tələbatın artması da işimizə müsbət təsir göstərib. Kim istəməz ki, süfrəsində təbii bal olsun. Bal min bir dərdin dərmanıdır. Dünyada yaponlar, almanlar daha çox baldan istifadə edirlər. Onlar şəkərə olan tələbatı balla ödəyirlər. İbn Sina əbəs yerə deməyib ki, nə olaydı təbabətdə istifadə olunan bütün dərmanlar bal kimi həm qida, həm də dərman olaydı. İndi bizim ölkəmizdə bala olan tələbat təxminən 5 min tondur. 2020-ci ildə istehsal 6 min tona yaxınlaşdı. İndi qalır yavaş-yavaş ixraca doğru getmək.

***- Xarici bazarlara çıxış imkanlarının hansı səviyyədədir? Dünya bazarlarında Azərbaycan balına tələbat varmı?***

- Azərbaycan balına dünyada da maraq artmağa başlayıb. Son illər az miqdarda da olsa, ərəb ölkələrinə göndərilir, bir az da Yaponiyaya gedir. Avropa ölkələrinə isə hələ ki, çıxış imkanımız yoxdur. Azərbaycandan heyvan mənşəli qidalar almırlar. Buna qadağa var. Qida Təhlükəsizliyi Agentliyi artıq bu istiqamətdə danışıqlara başlayıb. Güman edirik ki, həmin danışıqlar uğurla nəticələnəcək və qadağa aradan götürüləcək. Biz yavaş-yavaş ixraca doğru getməliyik. Bazar araşdırmaları davam edir. "Azpromo"nun xətti ilə bir çox ərəb ölkələrində, Avropa ölkələrində bazar araşdırmaları aparırıq. Artıq işğalda olan torpaqlarımız da azad olunub. Bu da bal istehsalı üçün bizə geniş imkanlar açır.

***- Yeri gəlmişkən, işğaldan azad olunmuş ərazilərimizdə arıçılığın inkişafına dair hansı təklifləriniz var?***

- Deyə bilərəm ki, artıq Azərbaycan Arıçılar Assosiasiyası tərəfindən Qarabağda arıçılığın inkişafına dair proqramın hazırlanmasına başlanılıb.Görülən işlər çərçivəsində bir müddət əvvəl mütəxəssislərimiz Qarabağ bölgəsinə ezam olunublar. Biz təxminən 10 gün ərzində orada olduq, əraziləri gəzdik.

> *"Biz isə yerli cinslərin həddindən artıq cırlaşmasının qarşısını almaq iqtidarında deyilik*

Ümumiyyətlə, keçmişdə olduğu kimi, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və s. bölgələr arıçılıq üçün ideal şəraiti olan ərazilərdir. Bir neçə arıçı aprel-may aylarında başlayan mövsümə öz təsərrüfatlarını Qarabağ bölgəsinə köçürməklərinə dair müraciət ediblər ki, bu müraciətlər artıq dövlətə təqdim olunub. Qarabağda arıçılıq sürətləndirilsə, birmənalı olaraq istehsal artacaq. Hesab edirəm ki, bu gün həmin ərazilərdə arıçılığı işğaldan əvvəlki vəziyyətdən də qat-qat yaxşı inkişaf etdirmək olar. Vaxtilə, Kəlbəcər, Laçında arıçılıq daha çox inkişaf etmişdi.

Hesab edirik ki, Qarabağın aran hissəsində, arazqırağı ərazilərdə də arıçılığın inkişafı üçün münbit şərait mövcuddur. Yəni, Qarabağda arıçılığı iki yerə bölməyi planlaşdırırıq. Həm dağ arıçılığı, həm də aran arıçılığı. Düşünürük ki, Qarabağın dağlıq hissəsi ilə yanaşı, aran hissəsində də arıçılığı inkişaf etdirmək mümkündür. Həmin ərazilərin bitki örtüyü də fərqlidir. İşğaldan azad edilmiş torpaqlarda bu təsərrüfatın inkişafı məhsuldarlığın 50 faiz artımına səbəb olacaq. Orada təxminən 300 min arı ailələrin artımı olacağı proqnozlaşdırılır. Bu da o deməkdir ki, Azərbaycanda illik bal istehsalı 10 min tonu keçəcək. Deməli, təxminən 5-6 min ton məhsulu ixrac etmək imkanı yaranacaq. Bu isə ölkə büdcəsinə əlavə valyutanın daxil olması deməkdir.

***- Hazırda üzvlərinizin sayı neçə nəfərdir?***

- Arıçılar Assosiasiyası 2016-cı ildə rəsmi qeydiyyatdan keçib. Üzvlərimizin sayı 10 mindən çoxdur. Hazırda 46 rayonda 4 şəhərdə nümayəndəliyimiz fəaliyyət göstərir. Assosiasiyanın tərkibində bir neçə komissiya var. Bu sıradan arı xəstəliyinin araşdırılması, bal bazasını yaxşılaşdırmaq, satış üzrə komissiyaları qeyd etmək olar.

***- Bu gün arıçıların əsas problemləri nədən ibarətdir? Daha çox hansı məsələlərlə bağlı sizə müraciət edirlər?***

- Bizdə əsas problem arı xəstəlikləri ilə bağlı peşəkar mütəxəssisin olmamasıdır. Bununla bağlı laboratoriya da yox dərəcəsindədir. Hansısa bir arı ailəsində ölüm olanda Respublika Baytarlıq Xidmətinə müraciət edirik. Onlar o qədər operativ cavab vermirlər. Bəzən də verdikləri cavab dəqiq olmur. Məcbur olub analizləri Türkiyəyə göndəririk. Baxmayaraq ki, bu kifayət qədər bahalı analizdir, amma sağ olsunlar Türkiyədə bizdən ödəniş də istəmirlər. Buna baxmayaraq analizlərin cavabının Azərbaycana gəlməsi müəyyən vaxt aparır. O vaxta kimi də xeyli arı ölümləri baş verir. Yəni, Azərbaycanda sırf arı xəstəlikləri ilə məşğul olan baytar həkim də yoxdur. Bu problemi arıçılar özləri həll etmək məcburiyyətində qalırlar. Onlar baytar həkim olmaq məcburiyyətindədirlər. Qış aylarında bəzi yerlərdə kütləvi ölümlər baş verib. Düzdür, onlar bərpa olunacaq. Bizi narahat edən əsas problem onların ölüm səbəblərini vaxtında və dəqiq müəyyən edə bilməməyimizdir. Biz səbəbi öyrənmək üçün bilmirik ki, kimə müraciət edək, kiminlə məsləhətləşək. Assosiasiya olaraq özümüz arı xəstəlikləri ilə məşğul olan bir komissiya yaratmışıq. Bizim üzvlərdən bu işi daha yaxşı bilənlər, daha yaxşı təcrübəyə malik olanlar bu komissiyada cəmləşiblər.

***- Azərbaycanda yaşayan arıların cins tərkibini yaxşılaşdırmaq, cılızlaşmanın qarşısını almaq üçün hansı addımlar atılır?***

- Əslində, qanunla Azərbaycana başqa cinslərin daxil olması qadağandır. Biz isə yerli cinslərin həddindən artıq cırlaşmasının qarşısını almaq iqtidarında deyilik. Bunun üçün xüsusi dövlət proqramının hazırlanmasına ehtiyac var. Ümumilikdə,cins tərkibini yaxşılaşdırmaq üçün arılarda xeyli iş aparılır. Biz başqa ölkələrdən uyğun cinslər gətirmişik. Bizim yerli arı cinsi "Boz Dağ Qafqaz" dağlıq ərazilərdə və 'Sarı Qafqaz" aran ərazilərdə yaşayan arı cinsidir. Avstriyada Alp dağlarında yaşayan, bir çox xüsusiyyətlərinə görə bizim "Boz Dağ Qafqaz" arısına çox yaxın, lakin almanlar və avstriyalılar tərəfindən 110 illik bir seleksiya, islah keçmiş "Karnika" arısı dünyanın çox yerinə yayılıb. Bundan başqa, Karpat dağlarında yaşayan, yenə bizim "Boz Dağ Qafqaz" arısına oxşarlığı olan, seleksiya olunmuş "Karpat" arısı da geniş yayılan cinslərdəndir. Dünyada ən çox istifadə olunan 5-6 arı cinsinin ən yaxşı xüsusiyyətlərini özündə cəmləşdirən "Bakfast" arısı da yaxşı kombinasiya sayılır. Bu cinsin əsas işi ancaq bal toplamaqdır. Azərbaycana əsasən bu üç arı gətirilir. Hər bir halda bizim yerli arı genofondumuzun qorunması vacibdir. Biz Qaxda izolə edilmiş müəyyən bir ərazidə buna nail olmuşuq. Bunun üçün xüsusi dövlət proqramının hazırlanması lazımdır. Arıçılıq strateji sahədir, ekologiyaya da böyük fayda verir. Bütün dünyada arıçılıq sahəsini tozlanmaya fayda verdiyinə görə qorumağa çalışırlar, inkişaf etmiş ölkələrdə bağları tozlandırmaq üçün hər arı ailəsinə vəsait ayrırlar. Dünyaca məşhur alim Albert Eynşteyn deyirdi ki, bal arısı məhv olarsa, həyat 4 ildən 10 ilə qədər davam edə bilər. Alim bunu boşuna deməyib. Entonofil bitkilərdə animafillər az olduğundan, onların çarpaz tozlanması az baş verir. Yəni onlar arasında küləklə tozlananlar azdır. Həşəratla tozlanan bitkilər daha çoxdur. Tozlamanın 85 faizini bal arısı aparır. İndi təsəvvür edək ki, tozlanma yoxdur, bitki örtüyü məhv olur, canlı aləmin aqibəti necə olar?! Ona görə də bütün dünyada arıçılar cəmiyyətin ərköyün təbəqəsinə çevriliblər. Bütün dünyada arıçılara subsidiyalar verilir, onlara xüsusi dəstəklər var.

***- Hazırda daha çox hansı ölkələrin arıçıları ilə əməkdaşlıq edirsiniz?***

- Daha çox Türkiyədən olan arıçılarla sıx işləyirik. Onlara Azərbaycana gəlir, biz Türkiyəyə gedirik. Bundan başqa Ukrayna arıçıları ilə əməkdaşlığımız var. Rusiya, Orta Asiya arıçıları ilə fikir mübadiləsi aparırıq. Amerika, Almaniya, Avstriya arıçıları ilə də ünsiyyətimiz var. Almaniya və Hollandiyaya səfər çərçivəsində ikitərəfli əməkdaşlığa dair dostluq memorandumu da imzalamışıq.

✍ ***Sevinc***

# Dünya iqtisadiyyatına uzanan dəniz yolları: boğaz və kanallar

## Araşdırma

**Süveyş kanalında baş verən qəza - Tayvan şirkətinə məxsus 400 metr uzunluğunda "Evergreen" adlı nəhəng yük gəmisinin qum fırtınası nəticəsində istiqamətini dəyişərək qurunta oturması dünyada mövcud olan dəniz keçid yollarının - boğazların və kanalların önəmini bir daha ortaya qoyub. Adıçəkilən gəminin, təxminən, bir həftə Süveyş kanalını bağlaması nəticəsində yalnız Misir gündəlik 14 milyon dollar gəlirdən məhrum olmadı, həm də dünya iqtisadiyyatı bu gözlənilməz qəzadan milyardlarla dollar ziyana düşdü.**

Boğaz və kanalların mövcudluluğu fərqli olsa da, iqtisadiyyatda rolu eynidir. Yəni boğazlar təbii hövzə olsa da, kanallar su hövzələrini bir-birinə birləşdirmək üçün tikilmiş süni su yoludur. Hər ikisi dənizdaşımalarını həyata keçirmək üçün əvəzsiz vasitədir. Bu baxımdan, dünyada mövcud olan əsas boğaz və kanallara nəzər salmağımız yaxşı olardı.

### Süveyş kanalı

Süveyş kanalı 1869-cu ildə tikilib və ilkin halda uzunluğu 163 kilometr olub. 2010-cu ildə kanalın genişləndirilməsi nəticəsində uzunluq 193 kilometrədək artırılıb. Təxminən, 205 metr eni, 24 metr dərinliyi olan kanaldan il ərzində 30 min gəmi keçir. Məlumatlara görə, Misirin üçüncü ən böyük gəlir mənbəyi olan süveyş kanalı bu ölkənin xəzinəsinə ildə 5-6 milyard dollar qazandırır. Qlobal ticarətin 12 faizində rol alan kanal dünya iqtisadiyyatına hər gün 10 milyard dollar fayda verir.

### İstanbul boğazı

Mərmərə və Qara dənizləri bir-birinə bağlayan İstanbul boğazı uzunluğu 29,9 kilometr, eni 698 metrdən 3,6 kilometrədək, ən dərin yeri isə 120 metr olan təbii su yoludur. Buradan hər il ortalama 50 min gəmi keçir. Tarix boyu yüksək strateji əhəmiyyəti olan İstanbul boğazı 35 kilometr uzunluğundadır. Montro Boğazlar haqda Müqaviləsinə görə buradan keçən gəmilərdən rüsum alına bilməz. Ona görə də Türkiyə, sadəcə, təhlükəsiz keçid, fənər, tibbi və sair öhdəliklər üçün hər il ümumilikdə 300 milyon lirə gəlir əldə edir. Hansı ki, bu gün İstanbul boğazı sıradan təbii su yolu olmayb, 18 milyon əhalinin yaşadığı İstanbul şəhərini ikiyə ayırır. Yəni şəhər su nəqliyyatını və ekoloji vəziyyəti təhlükəyə salan gəmi keçidlərinə yeni qaydaların qoyulması mütləqdir ki, bu müstəvidə də layihə mövcuddur. Söhbət İstanbul kanalının tikintiisndən gedir ki, onun inşasını 2023-cü ilədək başa çatdırmaq nəzərdə tutulub. Məhz bu kanalın inşası tamamlansa, İstanbul boğazından keçən hər cür gəmilər ora istiqamətləndiriləcək və bu da ildə Türkiyəyə 8 - 12 milyard dollar qazandıracaq.

Qeyd edək ki, İstanbul boğazında ildə ortalama 22 gəmi qəzası, 133 gəminin isə xarab olması kimi fakt qeydə alınıb. Elə bu səbəblərdən də İstanbul boğazından keçən gəmilərdən 24146-sı Türkiyə Sahil Təhlükəsizlik İdarəsinin xidmətlərindən faydalanıb.



### Cəbəllütariq boğazı

Əməvi sərkərdəsi Tarıq bin Ziyadın adı ilə adlandırılan bu boğaz Aralıq dənizi ilə Atlantik okeanı arasında qapıdır. Boğazın cənubu Mərakeşin, şimalı isə İspaniyanın nəzarətindədir, eyni adlı şəhər isə İngiltərənin müstəmləkəsidir. Uzunluğu 58 kilometr, eni 13 - 44 kilometr, ən dərin yeri isə 900 metr olan boğazdan ildə 7 - 8 min gəmi keçməkdədir. Bəzi məlumatlara görə, Cəbəllütariq boğazından ildə 10 milyard dollar gəlir götürüldüyü qeyd edilsə də, bu o qədər də inandırıcı görünmür. Boğaz təbii su yolu olduğu üçün gəmilər nəzarətçi ölkələrə rüsum ödəmir. Burada eynən İstanbul və Çanaqqala boğazlarında olduğu kimi, sadəcə təhlükəsizlik və sair tədbirlər məqsədilə, eləcə də sahil limandan faydalandıqları halda vergi ödəyə bilərlər. Bu da qazandırılan məbləğin daha aşağı ola biləcəyibni götərir.

### Çanaqqala boğazı

Çanaqqala boğazı Mərmərə və Egey dənizlərini bir-birinə bağlayan təbii su yoludur. Ən dərin yeri 103 metr, ən dar yeri 1,2 kilometr, ən enli yeri 6 kilometr, uzunluğu isə 61 kilometr olan Çanaqqala boğazından ildə 45 min gəmi keçməkdədir. Bu su yolunda da zaman-zaman gəmi qəzaları və ya bunun kimi olaylar baş verməkdədir. Məsələn, hesablamalara əsasən bir il ərzində burada 4 gəmi qəzası yaşanıb, üstəlik 175 gəmi xarab olaraq sahildən yardım istəyib. Ümulikdə isə, il ərzində 19925 gəmi Çanaqqala körfəzindən keçərkən Türkiyənin sahil təhlükəsizlik xidmətindən yararlanıb.

### Berinq boğazı

Strateji önəmi çox böyük olan Berinq boğazı Avrasiya ilə Şimalı Amerika arasında ən dar təbii su yolu sayılır. Adını 1728-ci ildə buradan keçən danimarkalı səyyah Vitus Berinqdən alan boğazın eni 92 kilometr, dərinliyi 30-50 metr aralığındadır. Bu su yolundan keçən yük gəmilərinin sayı digər boğazlarda olduğu kimi, minlərlə hesablanmasa da, siyasi və hərbi müstəvidə böyük əhəmiyyəti var.

### Magellan boğazı

Sakit okeanla Hind okeanını bir-birinə bağlayan bu boğaz, Argentina ilə Çili arasında yerləşən Tyerra del Fuego arxipelaqına daxil olan adalar aarsında da ayrıcı sədd rolunu oynamaqdadır. Uzunluğu 560 kilometr olan boğazın eni isə 3 - 32 kilometrdir. Panama kanalı fəaliyyətə başlayanadək Amerika qitəsinin şərq sahilindən qərb sahilindəki limalnara üzən gəmilər məhz bu boğazdan keçirmiş. İndi də qitənin cənub yarısındakı limanlardan Sakit okeana üzən gəmilər məhz Magellan boğazından faydalanırlar.

### Hürmüz boğazı

Hürmüz boğazı daşıma qüvvəsi baxımından ən önəmli təbii su yollarından biri olub Fars körfəzi ilə Hind okeanı arasında yerləşir. Eni 33 - 95 kilometr arasında dəyişən Hürmüz boğazı, həm də Fars körfəzinin ən dərin ərazisi sayılır. Burada suyun dərinliyi 200 metrdən artıqdır. Cənubuna Birləşmiş Ərəb Əmirlikləri və Oman, şimalına isə İran nəzarət edən boğazdan il ərzində 18 milyon barrel neft, eyni zamanda dünyada mövcud olan maye qaz kütləsinin 66 faizi daşınır. BU təbii su yolundan hər il təxminən 10 mindən çox gəmi keçməkdədir.

### Bab-ül Məndəb boğazı

Qırmızı dənizdən Hind okeanına çıxışda yer alan Bab-ül Məndəb boğazı da Hürmüz boğazı kimi çox vacib strateji əhəmiyyəti olan təbii su yoludur. Uzunluğu 32 kilometr olan bu keçidin şimal sahilləri Yəminin, cənubu isə Cibutinin nəzarətindədir. Boğazın ən dar yeri 26,5 kilometr, ən dərin yeri isə 310 metrdir. Hər il 20 mindən çox gəminin keçdiyi bu boğazdan ildə 5 milyon barrel neft daşınır. Hətta belə demək mümkündürsə, dünyada tankerlə daşınan neftin 8 faizi məhz Bab-ül Məndəbin payına düşür.

### Malakka və Sinqapur boğazı

Malakka boğazı İndoneziya ilə Malayziya arasında, Sinqapur boğazı isə Sinqapurla İndoneziya arasında yerləşməklə kompleks su yoludur. Təxminən 805 kilometr uzunluğu olan Malakka boğazından hər il 50 mindən çox gəmi keçir. Hesablamalara əsasən, dünya dəniz ticarətinin 20-25 faizi, eləcə də dəniz yolu ilə daşınan neftin 25 faizi məhz bu boğaz vasitəsilə həyata keçirilir.

### Kiel kanalı

Baltik dənizi ilə Şimal dənizi arasında qısa su yolu olaraq tikilən Kiel kanalı da bölgədə dəniz daşımaları üçün çox vacibdir. Təxminən, 98 kilometr uzunluğu, 103 metr eni, 11 metr dərinliyi olan bu kanalın üstündə hər biri 42 metr hündürlüyü olan 10 körpü mövcuddur. Almaniyanın statistika idarəsi bildirir ki, kanaldan il ərzində 90 minədək gəmi keçir.

### Panama kanalı

Panama kanalı Sakit okeanla Atlantik okeanını bir-birinə bağlayan süni su yolu olaraq dünya iqtisadiyyatında və dəniz nəqliyyatının fəaliyyətində çox böyük rol oynamaqdadır. Ortalama 77 kilometr uzunluğu olan kanal hər il Panama büdcəsinə təmiz 2 milyard dollar qazanc verir. Kanaldan 144 istiqamətə yol mövcuddur. Dünyanın 160 ölkəsi və toplam 1700 limanı bu kanalın xidmətindən istifadə etməkdədir. Panama kanalı həm də yerli əhalinin dolanışıq yeridir. Belə ki. Panamada işləyənlərin 82 faizinin toplandığı xidmət sektoru işçilərinin 64 faizi məhz kanal sahəsində çalışır. Hər il kanaldan keçən 14 mindən çox gəmi, ümumilikdə 205 milyon ton yük daşımaqdadır.

✍ ***Vüsal Tağıbəyli***

## Xüsusi müxbir

# Azərbaycan əsgəri bayraq sancıb qayıtdı

***44** günlük Vətən Müharibəsində hamı Vətənin müdafiəsinə qalxdı. Hər kəs öz silahı ilə öndə olmaq istədi və Dəmir Yumruq kimi bərkiyərək düşmənin başını əzdi. O düyünlənən yumruqda Azərbaycanın cəsarətli, peşəkar jurnalistləri qələmi kənara qoyub əlinə silah aldı. Real TV-nin xüsusi müxbiri İsmayıl Yaşaroğlu kimi... Doğum günü ərəfəsində "Həftə içi"nə müsahibə verən jurnalist həmkarımız apardığı mübarizənin "yol xəritəsi"ni cızmaqla maraqlı məsələlərə diqqət çəkib. O, bizə aldığı ən gözəl hədiyyədən danışıb.*



İsmayıl Yaşaroğlu,
Real TV-nin xüsusi müxbiri

***- İsmayıl bəy, döyüşə gedən bir jurnalist, əsgər olaraq yolun haradan başladı, hansı rayonlarda oldun, ilkin təəssüratların necə idi?***

- İlk dəfə Gəncə hadisələri ilə bağlı jurnalist kimi Gəncəyə ezam olundum. Sonra çəkiliş komandamızla birlikdə Tapqaraqoyunlu, Goranboy, Tərtər, Bərdə və digər rayonlarda olduq. Haradasa 10 günə yaxın müddətdə çəkilişlər apardıq. Qayıdandan sona hazırda çalışdığım Real TV-nin rəhbərliyinə müraciət edib, könüllü olaraq döyüşlərə qatılmaq istədiyimi dedim. Bundan sonra könüllü olaraq səfərbərliyə müraciət elədim. Səfərbərlik qəbul eləmədi, dedi ki, jurnalistsiniz, bu sahədə fəaliyyətiniz daha önəmlidir. Sonra birbaşa Binəqədi üzrə Səfərbərlik Xidmətinin rəisinin qəbulunda oldum. Xahiş etdim ki, mənim adımı ilk gedən qrupa yazsınlar.

Sağ olsun, xahişimi qəbul elədi, adımı siyahıya yazdı. Noyabr ayının 5-də mən könüllü döyüşçü kimi yollandım cəbhə bölgəsinə. Bizi, ilk növbədə, Ağcabədidəki tamamlanma mərkəzinə apardılar. Hansı ki, döyüşlər zamanı ön cəbhədə itkilər olduğu zaman, həmin bu toplama-tamamlanma mərkəzlərindən ora həmin o itkilərin yerini doldurmaq üçün döyüşçülər göndərirdilər. Daha sonra müxtəlif istiqamətlərdə bölündük, döyüşlərə qatıldıq. Bizimlə birlikdə Binəqədi Hərbi Komissarlığından 30-a yaxın yoldaşımız getmişdi. Biz Xocavənd istiqamətində döyüşlərə qatıldıq.

### Müharibəni, ancaq filmlərdə görmüşdük

***- Müharibəni necə təsəvvür edirdin, nə gördün?***

- Döyüşlər çox ağır keçirdi. Əslində, müharibə dedikdə, biz müharibənin belə ağrılı-acılı olmasını təsəvvür eləmirdik. Bizim yaşıdlarımız müharibə görməmişdi. Müharibəni, ancaq filmlərdə görmüşdük, kitablardan oxumuşduq. Hər kəs öz xəyal dünyasına uyğun olaraq təsəvvür edirdi müharibəni...

...Noyabrın 10-da komandir o şad xəbəri bizə verdi, dedilər ki, müharibə bitib, artıq qələbə qazanmışıq. Hər kəs dərindən nəfəs aldı. Hər kəsin bir məqsədi vardı. Qarşımızdakı məqsəd Xocalının, Bərdənin, Gəncənin qisasını almaq idi. Biz nəinki Xocalının, Bərdənin, Gəncənin, həm də birinci və ikinci Qarabağ müharibəsində şəhid olan qardaşlarımızın, yaxınlarımızın qisasını aldıq.

### Bəzi məqamlar var ki...

***- Niyə jurnalist kimi döyüşmək istəmədin, niyə əlinə silah almaq istədin?***

- Bunun bir neçə səbəbi var idi. Mənim atam Birinci Qarabağ müharibəsində iştirak edib, dayım həmin müharibədə şəhid olub, dostlarım, sinif yoldaşlarım, əsgər yoldaşlarım və hazırda birlikdə fəaliyyət göstərdiyim insanlar da Birinci Qarabağ, İkinci Qarabağ müharibəsində iştirak edib, çox böyük itkilər vermişdi. Bu, hər zaman bizim ağrılı-acılı yerimiz idi. Biz gözümüzü açandan bayraq, forma görmüşdük.

Ümumiyyətlə, döyüşlərə qatılmağımın ən son amili Gəncə hadisələri oldu. Gəncədə olarkən o ab-havanı görmək, dağılan divarlar, yer, tavan, hər bir daş, uşaqların oyuncağı, ailələrin xatirə şəkilləri və istər gecə saatlarında, istər gündüz saatlarında orada olub, o vahiməni müşahidə eləmək insanı sadəcə dəhşətə gətirirdi.

Bundan sonra, artıq qərar verdim ki, belə bir qətliam, terrordan sonra jurnalist kimi yox, məhz döyüşçü kimi bu müharibədə iştirak eləməliyəm. Həmin o şəxslərin, həmin o körpələrin qisasını döyüş meydanında almalıyam. Zatən jurnalist kimi yetərincə insanlarımızı məlumatlandırırdıq. Biz informasiya müharibəsində iştirak edirdik, amma bəzi məqamlar var ki, insan gərək qələmi mütəq silaha dəyişməyi bacarsın. Tutaq ki, mikrofon, kamera, qələm jurnalistin silahıdır, amma bəzən onu odlu silaha dəyişməyi bacarmaq lazımdır.

### Azərbaycan jurnalisti həm də yaxşı vətəndaşdır

***- Bir jurnalistin döyüş bölgəsindəki hazırlığını necə qiymətləndirirsən?***

- İnanın ki, orada artıq insan nə jurnalist, nə müəllim, nə mühəndis olur. Öz ixtisasın qalır mülki həyatda. Formanı geyinən hər bir şəxs Azərbaycan Silahlı Qüvvələrinin əsgəridir və əsgər olaraq yuxarı komandanlığa, komandir heyətinə tabedir və əmr icraçısıdır. Biz bu formanı əynimizə geyinəndə artıq buradakı fəaliyyətimizi unudurduq. Təbii ki, ixtisasca jurnalist olduğuma görə, orada müşahidələr aparırdım. Düşünürdüm ki, burada mikrofon və kamerası ilə vaxtilə Çingiz Mustafayev, Salatın Əsgərova olub və bütün baş verən proseslərin Birinci Qarabağ müharibəsi fonundakı üzünü dünya ictimaiyyətinə çatdırıblar. Təbii ki, bizdən də İkinci Qarabağ müharibəsində iştirak edən digər jurnalistlər vardı. Bütün televiziyalardan, saytlardan həmkarlarımız durmadan informasiya axınına qoşuldular. İndiki döyüşlər Birinci Qarabağ müharibəsi döyüşlərindən çox fərqlənirdi. Bu döyüşlər daha ağır şəraitdə, daha çətin relyef üstündə və tam fərqli taktiki sxem üzərində aparılırdı.

> Hər kəs öz xəyal dünyasına uyğun təsəvvür edirdi müharibəni

> Suriya, Livan, Sudan, Əfqanıstanın adları gələndə nə təsəvvür oyanırsa, həmin o vəziyyəti biz Qarabağda gördük

***- Bizim peşə sahiblərində "birinci çəkmək, birinci yaymaq" əsas olur. Bu müharibədə bu rəqabət özünü necə göstərirdi?***

- Azərbaycan Cənubi Qafqazda İkinci Qarabağ müharibəsi dövründə yeni növ hərbi jurnalistikanı təqdim etdi. Yeni-yeni simaları kəşf etdik. Təbii ki, İlqar Mikayıloğlu kimi jurnalistlərimiz yeni sima deyillər. Onların xüsusi fəaliyyəti, hər yarım saatdan bir canlı yayımlarla, reportajlarla, yazılmış materiallarla, materialları dəqiq, ən son nöqtələrdən, yəni hadisə baş verən rayonlardan çatdırması bir daha göstərdi ki, jurnalistlərimiz çox çevik və operativ işləyirlər. Əsas - məlumatı ən birinci və ən yaxşı formada çatdırmaqdır. Bütün jurnalistlərimiz bu istiqamətdə çox yaxşı çalışdılar.

Müşahidələr onu göstərirdi ki, təkcə televiziyalarda yox, saytlarda da müharibə dövründə fəaliyyət göstərən jurnalistlərimiz var imiş. Onlar təkcə İkinci Qarabağ müharibəsində yox, hətta Tovuz döyüşlərində belə özlərini göstərmişdilər. Tovuz döyüşlərində istər Real TV-nin əməkdaşları, istər digər həmkar kanallarımızdan, saytlardan, müxtəlif xəbər agentliklərindən jurnalistlər geniş və obyektiv şəkildə bu hadisələri həm Azərbaycan, həm də dünya ictimaiyyətinə çatdırmaq üçün əllərindən gələni edirdilər. Onların haqlarını itirmək olmaz.

***- Media olaraq Prezidentin müsahibələri fonunda bizim dünyaya çatdırdıqlarımız çox oldu. Öz daxili internet resurslarımızda işğaldan azad olunmuş ərazilərimizlə bağlı məlumatlar azdır. Bu istiqamətdə jurnalistlərimizin öhdəsinə nə düşür, nə etməliyik?***

- Dağlıq Qarabağın vaxtilə işğal altında olan 20 faiz torpaqlarının elə kəndləri var idi ki, sosial şəbəkələrdə, internetdə axtarışa vuranda adlar çıxmırdı, belə bir kəndin mövcudluğu barədə məlumat yox idi. Həmin o dediyiniz seqmentlərdə bu məlumatların yayılması cənab Prezidentin vaxtaşırı olaraq həmin kəndlərin işğaldan azad olunması barədə məlumatları verdikcə, paralel olaraq bu məlumatlar da yayılırdı. Sonradan axtarışa veriləndə o kəndlərin adları çıxırdı. Yəqin ki, xüsusi ekspertlər, yaxud o kəndləri yaxından tanıyan insanlar tərəfindən sonradan bu məlumatlar internet vasitələrinə, sosial şəbəkələrə yerləşdirildi.

O ki qaldı informasiya müharibəsində yaranmış həmin o vəziyyətlə bağlı verdiyiniz suala, yenə də yetərincə deyil. Beynəlxalq təşkilatlar, kütləvi informasiya vasitələri Azərbaycana qarşı ədalətsizliyini bir daha göstərdilər. Yenə də sağ olsun dost, qardaş ölkələr. Yenə də sağ olsun Türkiyə mətbuatı, digər ölkələrin jurnalistləri və öz jurnalistlərimiz.

Onlar Azərbaycanda gedən prosesləri obyektiv şəkildə dünyaya çatdırmağa çalışırdılar. Ölkə başçısı özü də vaxtaşırı verdiyi müsahibələrdə həm də bir informasiya müharibəsi aparırdı. Ölkə başçısı həm əsgər idi, həm Baş komandan, həm hüquqşünas, həm də bir jurnalist.

***- Jurnalistlər də mülki şəxslərdir. Bu mənada jurnalistlərin təhlükəsizliyinin qorunması istiqamətində müharibə zamanı müəyyən addımlar atıldı. Jurnalistlər ön cəbhəyə buraxılmadı. Belə deyilir ki, jurnalistlərimizin qaynar nöqtələrə gedilməsinə o dərəcədə icazə verilmədi. Bir çox hallarda hesab edilir ki, gedilməliydi. Buna fikrin nədir?***

- Təkcə Cenevrə Konvensiyası yox, ümumiyyətlə beynəlxalq humanitar hüquq və dünya ölkələri tərəfindən, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən qətnamələr və konvensiyalarda qeyd olunur ki, müharibə dövründə jurnalistlərə, sivillərə, uşaqlara qarşı xüsusi diqqətlə yanaşmaq lazımdır, onlar bu müharibələrdə zərər çəkməməlidirlər. Təəssüflər olsun ki, biz ikinci Qarabağ müharibəsində bunun tam əksini gördük. Ermənistan silahlı qüvvələri cəbhə bölgəsindən kilometrlərlə uzaqda olan Bərdəni, Gəncəni, Tərtəri, Ağcabədini vurdular. Döyüşlər zamanı ölümlə üzbəüz olan jurnalistlərimiz vardı.

Jurnalistlərimizin qaynar nöqtələrə buraxılmaması əslində Azərbaycan dövlətinin çox uğurlu bir siyasəti idi. Xatırlayırsınızsa, o ərəfələrdə ümumiyyətlə sosial şəbəkələrə giriş də məhdudlaşdırılmışdı. Jurnalistlərimiz çəkiliş apardıqları yerlərdə həmin məkan artıq düşmənin əlinə televiziya, sosial şəbəkə vasitəsilə keçə bilərdi. Digər tərəfdən baxsaq, Birinci Qarabağ müharibəsində bizim öyrəşdiyimiz məqamlardan biri Çingiz Mustafayev və digər jurnalistlərimizin döyüş proseslərini çəkib paylaşması idi. İndiki halda döyüşlər ağır artilleriya, aviyasiyayla və minamyotlarla aparılırdı. Təbii ki, xüsusi təyinatlılarımızın, könüllülərimizin əməyini itirmək mümkün deyil, ancaq əsas döyüş prosesi uzaqdan idarə olunurdu. Belə bir şəraitdə nəinki çəkiliş aparmaq, hətta yaxın məsafədən döyüşləri müşahidə etmək qeyri-mümkün idi.

***- Müharibədə sosial medianın, sosial şəbəkələrin rolunu necə dəyərləndirirsən?***

- Sosial şəbəkələr müharibə dövründə özü bir təhlükə mənbəyi idi. Necə ki, döyüş sahələrində minalar olur, mənim üçün o mina sahələrindən biri də həmin o sosial şəbəkələr idi. Dövlətin atdığı ən uğurlu, ən təqdirəlayiq addımlardan biri də məhz sosial şəbəkələrin, internetin məhdudlaşdırılması oldu. Bəzən orda paylaşılan məlumatlar, yazılar, şəkil və videolar bizim özümüzə qarşı istifadə olunurdu. Ölkəmizə, dövlətimizə, əsgərimizə qarşı həm təhdid, həm təhlükə yaradırdı. Ona görə də sosial şəbəkələrin fəaliyyətini qınayıram.

***- İsmayıl bəy, şükürlər olsun ki, torpaqlarımız işğaldan azad olunub. Görünən odur ki, ermənilər şəhər və kəndlərimizi xarabalığa çevirib. Belə bir gündə jurnalistlərimizin üzərinə hansı öhdəliklər düşür və bu aspektdə görülən işləri necə dəyərləndirirsən?***

- 30 ilə yaxın müddətdə Dağlıq Qarabağ ərazisi, işğal altında olan 20 faiz torpağımız 44 gün ərzində əsgərlərimizin və dövlətimizin uğurlu siyasəti nəticəsində azad edildi. Hansı ki, ermənilər o yerləri ölü şəhərlərə, xarabalığa çevrib. Suriya, Livan, Sudan, Əfqanıstanın adları gələndə nə təsəvvür oyanırsa, həmin o vəziyyəti biz Qarabağda gördük.

Bu gün jurnalistlərin müharibə vaxtı qaynar nöqtələrə buraxılmasından çox danışılır. Jurnalistlərimiz bu gün həmin o çalışmanı, erməni vandalizmini ictimaiyyətə çatdırmaq, yaymaqla bağlı mübarizəni müharibədən sonra da apara bilər. İndi bilirsiz ki, müraciət edib işğaldan azad olunmuş ərazilərimizə getmək olur. Orada çəkilişlər aparıb bunu dünya ictimaiyyətinə çatdırmaq olur. Bax, jurnalistlərimizin əsas fəaliyyəti indi görmək istəyərəm. Bəzi kanallarımız, saytlarımız gedib orda müxtəlif çəkilişlər edir, ancaq yetərincə deyil, sanki bu gün o qələbə ab-havasından kənarlaşmışıq. Vaxtilə Aprel döyüşlərində Lələtəpəni - strateji olsa da çox kiçik olan bu ərazini azad edəndə sanki daha yaxşı idik. Onda bütün dünyaya biz ordumuzun, dövlətimizin gücünü, Azərbaycan dövlətinin nəyi bacara bildiyini göstərdik. Ümid edirəm ki, jurnalistlərimiz bu istiqamətdə yaxşı çalışacaqlar. Bayaq qeyd etdiyiniz sosial şəbəkə seqmenti əslində burda özünü göstərməlidir. Sosial şəbəkələr həqiqəti dünyaya çatdırmaq üçün bir geniş platformaya çevrilməlidir.

***- Müharibədən sonra jurnalist fəaliyyətin hansı istiqamətdə inkişaf edir. Müharibədən sonra hansı rayonlarımızda oldun, nələri gördün, hansı düşüncələrə daldın və nələri arzu etdin?***

- ...Ağdamın Mərzili kəndində ordudan təxris olundum. Yenidən əvvəl çalışdığım Real-TV-də aparıcı müxbir kimi fəaliyyət göstərirəm. İndiki fəaliyyətimiz də bir əsgər kimi davam edir. Jurnalist də dövlətinin bir əsgəridir. Ön cəbhədə əlimizdə silah olub, arxa cəbhədə qələm, mikrafon. Bundan sonrakı fəaliyyətimiz də Böyük Qayıdış konsepsiyasının işıqlandırılması, Ermənistanın bu günə qədər törətdiyi cinayətlərlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə, beynəlxalq qurumlara çatdırılmasıdır. Ümid edirik ki, tez bir zamanda həmin o ərazilər bərpa olunacaq və azərbaycanlı soydaşlarımız uzun illər bu qələbənin dadını çıxaracağıq.



Döyüşə gedərkən Bakıdan çıxanda demişdim ki, ölsək şəhidik, qalsaq qazi. Ya bayrağı sancıb gələcəyik, ya da bayrağa bükülüb gətirəcəklər. Hər ikisi fəxrdir, hər ikisi qürurludur. Şükürlər olsun ki, Azərbaycan əsgəri bayraq sancıb qayıtdı. Şəhdlərimizə, şəhid olan qardaşlarımıza rəhmət diləyirəm. 30 ildən sonra ədalət bərqərar oldu. 30 ildən sonra Azərbaycan əsgəri, Azərbaycan dövləti, Azərbaycan Prezidenti verdiyi vədlərə, dediyi sözlərə əməl etdi. Öz gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. Ümid edirik ki, yaxın zamanda soydaşlarımız həmin ərazilərə qayıdacaqlar, Böyük Qayıdış konsepsiyası uğurla yekunlaşacaq. Bu elə bir hissdir ki, bunu sözlərlə ifadə eləmək olmur, çünki müharibə ağırdır, çətindir. Müharibədən sonra çətinliklə bitən qələbə dünyanın ən gözəl unudulmaz hədiyyəsidir.

Bu gün doğum günümdür. Və bu müsahibəni sizdən doğum günü hədiyyəsi kimi qəbul edirəm.

***- İsmayıl bəy, biz də "Həftə içi" kollektivi, həmkarlarınız olaraq səni ürəkdən təbrik edir, gələcək işlərində uğurlar diləyirik. Doğum günün mübarək olsun!***

✍ *Tahirə Qafarlı*

---




**■ Rusiya və Azərbaycan xarici işlər nazirləri Sergey Lavrov və Ceyhun Bayramov arasında görüş bu gün keçiriləcək. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.**

O, rusiyalı nazirin ayrı-ayrılıqda Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə görüşlər keçirəcəyini söyləyib. Qeyd edək ki, ötən həftə Rusiya XİN rəsmisi Mariya Zaxarova Lavrovun azərbaycanlı və erməni həmkarları ilə MDB xarici işlər nazirləri Şurasının iclası çərçivəsində aprelin 2-də ayrı-ayrılıqda görüşünün keçiriləcəyini açıqlamışdı. Dünən isə Zaxarova görüşün vaxtının dəyişdirildiyini, nazirlərin aprelin 1-də görüşəcəklərini bildirib.



**■ "İşğaldan azad edilmiş ərazilərin indiyə qədər təxminən 3 milyon 600 min kvadrat metrdən çox ərazisi minalardan təmizlənib. Həmin ərazilərdə 2 mindən çox tank əleyhinə, 4 mindən çox piyada əleyhinə minalar aşkar edilərək zərərsizləşdirilib".**

Bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Horadiz İnzibati mərkəzinin təmizləmə qrupunun əməliyyat meneceri Mədət Məmmədov deyib. O bildirib ki, hazırda kommunikasiya xətlərinin keçdiyi ərazilər minalardan təmizlənir. M. Məmmədov həmçinin qeyd edib ki, aşkar edilən minalar əsasən Rusiya istehsalı olan minalardır.



**■ Rusiya müdafiə nazirinin müavini, ordu generalı Dmitri Bulqakov Qarabağa səfər edib. D. Bulqakov Xankəndidə Rusiya sülhməramlıları üçün inşa edilmiş 250 yerlik blok-modul şəhərciyinin açılışında iştirak edib.**

D. Bulqakov bildirib ki, Rusiya sülhməramlı kontingenti üçün mobil şəhərciklər aprelin 5-dən gec olmayaraq istismara veriləcək:

"Bu günə 25 belə şəhərcik qurulub. Hazırda şəhərciklərin istismara verilməsi üçün son tamamlama işləri aparılır. Aprelin 5-dən gec olmayaraq bütün modul şəhərciklər istismara veriləcək". O, aprelin sonuna qədər sülhməramlılar üçün mobil hospital açılacağını da qeyd edib.



**■ Rəsmi Pekin koronavirus infeksiyasının mənbəyini araşdırmaq üçün Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) missiyasının Çinin Uhan şəhərinə edilən səfərinin yekununa dair hesabatın hazırlanmasında iştirak edən mütəxəssislərin peşəkarlığını yüksək qiymətləndirib.**

Bu barədə ÇXR-in Xarici İşlər Nazirliyinin açıqlamasında deyilir. "Çin tərəfi qeyd edir ki, Ümumdünya Səhiyyə Təşkilatı yeni növ koronavirusun mənşəyinin öyrənilməsinə dair hesabat yayımlayıb. Çin tərəfi bu ortaq araşdırmada iştirak edən çinli və xarici mütəxəssislərin elmə bağlılığını, peşəkarlığını və səylərini yüksək qiymətləndirir", - deyə qurumun rəsmi saytında yayılan sənəddə bildirilir.



**■ Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun işğaldan azad edilmiş, lakin minalardan tam təmizlənməmiş ərazilərə icazəsiz keçməyə cəhd göstərən şəxslərin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan hafta.az-a verilən məlumata görə, Füzuli RPŞ-nin əməkdaşları tərəfindən həyata keçirilmiş tədbirlər zamanı polis postlarından kənar, alternativ yollarla işğaldan azad edilmiş ərazilərə icazəsiz keçməyə cəhd göstərən 13 nəfər Beyləqan rayon sakini 5 avtomaşınla birlikdə rayonun Alxanlı kəndi ərazisində müəyyən edilərək saxlanılıb.



**■ Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2237 yeni yoluxma faktı qeydə alınıb, 787 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 29 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 261 713 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 238 125 nəfər müalicə olunaraq sağalıb, 3567 nəfər vəfat edib, aktiv xəstə sayı 20021 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 885, ötən müddət ərzində isə ümumilikdə 2 873 658 test aparılıb.

Reportaj

# DƏNİZKƏNARI MİLLİ PARKDA yaz hazırlığı

***Mədəni istirahətin əvəzsiz ünvanı - Dənizkənarı Milli Park ərazisində bu yaz da ziyarətçiləri hərzamankından daha gözəl qarşılamaq üçün hazırlıqlar davam edir. Bulvar ərazisi səsli-küylü Bakımıza istirahət üçün üz tutulan ən populyar məkanlardan biri hesab olunur. Bura əsrlərdir ziyarətçiləri öz gözəlliyi ilə valeh edib. Hafta.az-ın əməkdaşı yazın isti nəfəsinin duyulduğu martın son günlərində üz tutdu Bakı Bulvarına. Pandemiyanın hökm sürdüyü bu günlərdə bulvar ərazisindəki son vəziyyətlə maraqlandıq. "Gəmi gəzintisi" və "Kiçik Venesiya" şəhərciyinin hazırkı fəaliyyəti ilə tanış olduq.***





**Rəfail Niftəliyev,**
"Milli Park" MMC-nin direktoru

## Kiçik Venesiya şəhərciyi

**Quruluş etibarilə İtaliyanın Venesiya şəhərini xatırladan bu yer 1960-cı ildə Dənizkənarı Milli Parkın ərazisində salınmışdır.**

Şəhərcik hər zaman bakılıların və paytaxtımızın qonaqlarının sevimli istirahət yeri olsa da, hazırda bura nə gələn, nə də gedən var. Elə orada olduğumuz müddətdə də bu halı əyani şəkildə izləmiş olduq. Hər halda, pandemiya digər bütün sahələrə olduğu kimi, buraya da təsirsiz ötüşməyib.

## Gəmi gəzintisi

**Daha sonra üz tutduq gəmi gəzintisi ilə dənizdən Bakımıza baxmağa. Buradan da deyildi ki, son vaxtlar tələbatın azlığı ilə bağlı olaraq gəmi axşamüstü saat 5-dən sonra dənizə açılır.** Üstəlik, turlar daha əvvəlki kimi böyük gəmi ilə deyil, nisbətən kiçik olanlarla təşkil olunur.

Bu gün isə küləyin sürəti nəzərə alınaraq, tələbat olduğu halda dənizə çıxmaq mümkün olacaq. Əməkdaşla söhbət əsnasında gələn iki gənc xanıma da eyni cavab verildi. Yaxınlaşıb xanımlarla bir qədər həmsöhbət olduq.

Paytaxt sakini Nigar xanım bildirdi ki, daha əvvəl bir neçə dəfə gəmi ilə turda iştirak edib. O zaman qiymətlər adi yerlər üçün 3 manat təşkil edirdi: "Elə təzəlikcə pandemiya müddətində gəmi ilə tura çıxmışam. Biz də hər kəs kimi, COVID-19-un yox olmasını səbirsizliklə gözləyənlərdənik. İndi daha heç nə əvvəlki kimi deyil. Qədrini bilmədiyim həmin günlər və sevimli istirahətim üçün darıxmışam".



Digər həmsöhbətimiz isə paytaxt sakini Fidan xanım oldu. O da turla bağlı kassaya yaxınlaşıb, bilet soruşanlardan biri idi. Fidan xanım deyir ki, tura hər zaman axşamüstü gəldiyi üçün gündüzlər işləyib-işləməməsindən xəbərsizdir.

Qiymətlərə gəldikdə isə burada lüks yerlər 10, adilər isə 3 manat olub, lakin atıq 2-ci dəfədir, turun olmaması ilə qarşılaşır.

Dənizkənarı Milli Parkda adəti üzrə güllər əkilir, yaşıllıqlar suvarılırdı. Bu il ərazidə bizi hansı yeniliklərin gözlədiyini öyrənmək üçün "Milli Park" MMC-nin direktoru Rəfail Niftəliyevə müraciət etdik. O bildirdi ki, Bulvar hər zaman istirahət üçün paytaxt sakinlərinin üzünə açıqdır.



Təbii ki, Operativ Qərargahın tövsiyələrinə uyğun şəkildə, maskadan istifadə, ara məsafəsinin gözlənilməsi, gigiyenik qaydalara əməl olunması şərtləri çərçivəsində:

"Ərazidə tərəfimizdən mütəmadi olaraq dezinfeksiya işləri həyata keçirirlir.

Oturacaqlar və digər qurğular sanitar-gigiyenik qaydalara uyğun olaraq təmizlənir. O ki qaldı Dənizkənarı Milli Parkın yaz hazırlığına, burada yeni güllər-çiçəklər, kollar əkilir, qazon örtüyü təzələnir". Direktorun sözlərinə görə, "Kiçik Venesiya" şəhərciyinin fəaliyyətində yaxın zamanlarda heç bir dəyişiklik gözlənilmir:

"Burada mövcud olan qayıqların hər biri yenidir. Bu baxımdan, hər şey yüksək səviyyədə əhalinin xidmətinə hazırdır. Gələcək dövrlərdə şəhərciyin ərazisinin genişləndirilməsi və bu tip başqa yeniliklər nəzərdə tutulmayıb".

Qurum rəsmisi bu il Dənizkənarı Milli Park ərazisinə yeni attraksionların gətirilmə ehtimalı olduğunu da vurğuladı:

"Pandemiya ilə bağlı Bulvar ərazisində yerləşən qurğuların böyük əksəriyyəti hazırda işləmir. Bulvar ərazisində yerləşən əyləncəli attraksionların yaz aylarında işləyib-işləməyəcəyi hələlik məlum deyil. Biz fəaliyyətimizi Operativ Qərargahın tövsiyələrinə uyğun davam etdiririk.

Attraksionların nə vaxt işləyəcəyi barədə hələ dəqiq məlumatımız yoxdur. Yaxın gələcəkdə bura yeni attraksionların gətirilməsi də nəzərdə tutlur. İndi danışıqlara hazırlıq prosesi gedir".

Görünən odur ki, mövsümündən asılı olmayaraq, ziyarətçilərini heyran qoymağı bacaran Bakı Bulvarında yazlıq çiçəklər əkilir, kollar budanır. Yaranmış durğunluq isə pandemiyanın təsirləridir.

✍ *Banu*

Sosial

**Son illər paytaxtda və ətraf rayonlarda sahibsiz heyvanların sayının artmasını müşahidə edirik. Bu hal həm əhali arasında narazılığa səbəb olur, həm də heyvanların rifahına mənfi təsir göstərir. Üstəlik, belə heyvanların antisanitar vəziyyətdə yaşadığı və ac-susuz qaldığı da hər kəsə məlumdur. Zaman-zaman küçə itlərinin populyasiyasının qarşısının alınması, onlara lazımi qulluq üçün müxtəlif addımlar atılsa da, təəssüflər olsun ki, bu sadəcə çox kiçik bir qism heyvanı əhatə edir.**

# Küçə heyvanlarının artımı hansı yolla əngəllənir?



Günbəgün artan sahibsiz heyvan sayı onların müəmmalı və acınacaqlı taleyini bir daha gündəmə gətirir. Səssiz-sədasız dostlarımız doğulduqları andan etibarən, həm təbii şəraitlə, həm də insanların mənfi rəftarı ilə mübarizə aparmağa məhkumdur.

Hazırda küçə heyvanlarının nəsilartırmasının qarşısını almaq üçün onların qısırlaşdırıldığı, lakin prosesin ağrılı olduğu söylənilməkdədir. Bir qrup insan düşünür ki, prosesdən sonra küçə heyvanlarını ağrı-acılı günlər də gözləyir. Hafta.az-ın əməkdaşı məsələyə aydınlıq gətirmək üçün mütəxəssisə müraciət etdi.

■ **"Toplan" Sahibsiz İtlərə Qayğı Mərkəzinin baytar həkimi Cəlal Məlikov söylədi ki, istər küçə, istərsə də sahibli heyvanlara "qısırlaşdırma" prosesinin icrasının heç bir fərqi yoxdur.** Ağrı isə cərrahi prosedur keçmiş hər bir canlıda olduğu kimi, bir neçə gün davam edir: "Əməliyyat narkozla həyata keçirilir. Ardınca isə vəziyyətə uyğun olaraq, antibiotik - müalicə kompleksi yazılır. Bundan sonra, təxminən, 1 həftə-10 gün müddətində heyvanda ağrı olur. Bu da normal haldır".

Baytar qısırlaşdırma prosesindən sonra küçə itlərinə qulluğun hansı formada olduğu mövzusuna da münasibət bildirdi. Onun sözlərinə görə, sahibsiz itlər yalnız 3 gün klinikada müalicə ala bilir: "Mən özəl müəssisədə baytar işlədiyim üçün bura adətən ev heyvanları gətirilir. Küçə heyvanları gətirildikdə isə onlara 3 gün müddətində vitamin kompleksi və başqa müalicə vasitələri tətbiq olunur, ardınca isə küçəyə buraxılır".

Diqqətinizə çatdıraq ki, hazırda dünyada heyvan haqlarının yüksək səviyyədə qorunduğu ölkələrdən İsveçrə və İngiltərə ön sıralardadır. İsveçrə 1992-ci ildən etibarən heyvanları konstitusiya olaraq tanıyan ilk ölkədir. Hər iki dövlətdə heyvanlar "hiss edilə bilən" canlılar olaraq qəbul edilmişdir. Heyvanları qoruma qanununa görə, onlardan sui-istifadə edən şəxslər cinayətin ağırlığından asılı olaraq, cərimə və ya 3 ilədək həbs cəzası alırlar.

Bu qanunlar dünyanın hər yerində eyni deyildir. Elə inkişaf etmiş ölkələr var ki, burada hətta küçə heyvanları öldürülür. Misal olaraq deyək ki, Avropa və Ameriakada küçə heyvanları yığılaraq sığınacaqlara qoyulur. Burada hər heyvana 2 həftə müddət verilir (bu müddət sığınacağa və ölkəyə görə dəyişə bilər). 2 həftənin tamamında sahiblənilməyən heyvanlar yatırılır (öldürülür).

Ölkəmizdə isə sahibsiz heyvanlarla bağlı problem hər zaman ən aktual məsələlərdən biri hesab edilmişdir. Bunun nümunəsi kimi, 2009-cu ildə Bakı-Şamaxı magistral yolunun 15-ci kilometrliyində yerləşən Azərbaycan Heyvanları Xilasetmə Mərkəzinin (AARC) açılmasını göstərmək olar.

Bundan başqa, 2014-cü ilin oktyabr ayında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyeva tərəfindən IDEA Heyvanlara Qayğı Mərkəzinin təməli qoyulmuşdur. 2016-cı ilin sonunda Mərkəzin inşası başa çatdırılmış, 10 noyabr tarixində isə Leyla Əliyevanın iştirakı ilə kompleksin rəsmi açılışı olmuşdur. 2017-ci ilin 1 mart tarixindən etibarən Mərkəz rəsmi fəaliyyətə başlamışdır. Mərkəzdə müasir avadanlıqla təchiz olunmuş klinika, it və pişiklər üçün sığınacaq blokları, ayrı karantin blokları, himayə bölməsi, oyun meydançası, yataqxana, konfrans zalı və s. mövcuddur.

Qeyd edək ki, dünyada küçədə yaşayan sahibsiz it və pişiklərin ümumi sayının təxminən 600 milyon olduğu görünməkdədir.

Hər il 4 aprel tarixi dünyanın hər yerində həyatlarını çox çətin şəraitdə keçirməyə çalışan küçə heyvanlarının qorunması, sığınacağı və qidalanması kimi ehtiyaclara diqqət çəkmək üçün "Dünya Küçə Heyvanları Günü" olaraq qeyd olunur.

✍ *Banu*

# Qonşu ölkələrdəki valyuta ucuzlaşmaları Azərbaycana necə təsir edir?

**"Mərkəzi Bank qonşu ölkələrdə milli valyutaların dollara nisbətən dəyər itirməsinə münasibət bildirib. Açıqlamadan aydın olur ki, növbəti dövrlərdə də manatın məzənnəsində Mərkəzi Bankın mövqeyi həlledici olacaq". Bunu iqtisadçı deputat Vüqar Bayramov sosial şəbəkədə yazıb. O qeyd edib ki, regionun aparıcı ölkələrində milli valyutalarının ucuzlaşmasının hazırda valyuta bazarımıza iqtisadi deyil, daha çox psixoloji təsirləri var:**

"Bununla yanaşı, Mərkəzi Bankın açıqlamasından da göründüyü kimi neftin dünya bazar qiyməti bu kontekstdə daha vacib indikatordur. Çünki ölkəyə daxil olan valyutanın 85 faizə yaxınını enerji sektoru formalaşdırır. Hazırda isə neftin qiyməti Mərkəzi Bank üçün məqbul səviyyədə hesab oluna bilər. Bununla belə, neft bazarında volatilliyin yüksək olması da diqqətdə saxlanılmalıdır.

Bununla yanaşı, həm Türkiyə, həm də Rusiya Azərbaycan üçün vacib ticarət tərəfdaşlarındandır. Türkiyə ilə 4.5 milyard dollara yaxın, Rusiya ilə isə 3 milyard dollardan artıq ticarətimiz var. Bu, ümumi xarici ticarət dövriyyəmizin 23 faizi deməkdir. Bu baxımdan əsas ticarət tərəfdaşlarımızdakı iqtisadi və maliyyə dəyişikliklərin xarici ticarət dövriyyəmizə təsirlərinin minimumlaşdırılması istiqamətində fəaliyyətlərin genişləndirilməsi də məqsədəuyğundur".

✍ *Sevinc*



■ **Masallı rayonunda 16 yaşlı qıza toya etmək istəyən valideynlər polis şöbəsinə gətirilib. Masallı rayon icra başçısının birinci müavini Məmmədhüseyn Hüseynov "Qafqazinfo"ya açıqlamasında bildirib ki, Sığınacaq kəndində 2005-ci il təvəllüdlü qız və 1990-cı il təvəllüdlü oğlan üçün valideynləri toy etmək üçün hazırlıq görüblər:**

"Toy mərasiminin bu gecə keçirilməsi planlaşdırılıbmış. Bizim məlumatımız əsasında polis əməkdaşları da hadisə yerinə cəlb olunub. Hər iki şəxsin valideynləri polis şöbəsinə gətirilib". Məlumata görə, qızın bir ay əvvəl 16 yaşı tamam olub. Qeyd edək ki, bu barədə ilk məlumatı cenub.az saytı yayıb.



■ **Nepalda son günlər atmosferdə zərərli hissəciklərin miqdarının normadan xeyli çoxalması səbəbindən orta məktəblərdə dərslər 4 gün müddətinə təxirə salınıb.**

Nepalın sürətlə böyüyən paytaxtı Katmanduda xüsusən hava çirkliliyi son illər ciddi problemə çevrilib. Ölkənin Ətraf Mühit Departamenti bir kubmetr havada zərərli hissəciklərin miqdarının 214 mikroqrama (PM2.5) çatdığını açıqlayıb. Nepal hökumətinin bununla bağlı standartı 40 mikroqramdır. Səhiyyə Nazirliyi əhalini ehtiyac olmadığı halda açıq havaya çıxmamağa çağırıb. Bu cür hava şəraitinin COVID-19 riskini çoxaltdığı da bildirilir.



■ **Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın növbəti iclası keçirilib. Nazirlər Kabinetindən hafta.az-a bildirilib ki, iclasda Qərargah üzvləri, şəhər və rayonların İcra hakimiyyəti başçıları və baş həkimlər iştirak ediblər.**

İclas zamanı ölkədə pandemiyaya qarşı mübarizənin vəziyyəti - yoluxmanın dinamikası və peyvəndləmə prosesinin gedişi müzakirə olunub. Ölkədə peyvənd ehtiyatı ilə bağlı vəziyyətin qənaətbəxş olduğu qeyd edilib. Peyvəndlənmənin əhəmiyyətinə dair maarifləndirmə işinin daha da genişləndirilməsi, peyvənd vurulması prosesinin sürətləndirilməsi və nəzarətin gücləndirilməsi haqda tapşırıqlar verilib.



■ **Ermənistan silahlı qüvvələrinin Gorus rayonunun Xnatsax kəndindəki mövqelərinin Azərbaycanın Laçın rayonu ilə sərhəd ərazisindəki Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən guya mühasirəyə alınması və istənilən an ermənilərin postlarını itirə biləcəyi barədə bu ölkənin yaydığı məlumatın əsası yoxdur. Bu, şişirdilmiş və təhrif olunmuş xəbərdir.**

Bu barədə Azərbaycan Müdafiə Nazirliyindən hafta.az-a bildirilib. Məlumatda deyilir: "Bildiririk ki, Ordumuzun bölmələri Azərbaycanın Laçın rayonunun Ermənistanın Gorus rayonu ilə sərhəd zonasındakı mövqelərdə dislokasiya olunub və ölkəmizin suveren ərazilərində gündəlik xidməti fəaliyyətini həyata keçirir, bu da heç bir təhdid doğurmur".



■ **Banqladeş ölkədə COVID-19 virusuna yoluxmaları azaltmaq üçün Avropa ölkələrindən gələnlərin 14 günlük məcburi karantinə cəlb olunmasına qərar verib. Banqladeşin mülki aviasiya qurumu qərarın martın 31-dən qüvvəyə mindiyini açıqlayıb.**

Avropadan gələnlər hökumətin müəyyən etdiyi mehmanxanalarda öz hesablarına karantin dövrünü keçəcəklər. Pandemiyanın yeni dalğasının müşahidə olunduğu Banqladeşdə virusla mübarizə tədbirlərini sərtləşdirməyə başlayıb. Martın əvvəlindən gündəlik yoluxma və ölüm hallarının sayı davamlı artır. Son 3 gündə isə yoluxma sayı 5 mindən çox olub.



■ **Almaniyanın Lippştadt şəhərindəki klinikanın serverinə kiberhücum yeni pasiyentlərin qəbulunda fasilə yaranmasına səbəb olub.**

Cinayətkarlar tərəfindən bu müalicə müəssisəsinin kompüter sisteminə zərərli proqramın məsafədən daxil edilməsi nəticəsində xəstəxananın işçi heyəti bu günə təyin olunmuş bütün əməliyyatları təxirə salmağa məcbur olub. Klinikanın bütün informasiya-kommunikasiya sistemi "donub", pasiyentlərin qeydiyyata alınması və onların epikrizlərinin sənədləşdirilməsi proqramı korlanıb. Burada haker hücumunun nəticələri aradan qaldırılana qədər yalnız təxriəsalınmaz xidmətlər göstəriləcək. Hadisə ilə əlaqədar cinayət işi başlanıb.

## Tarix




# Bu gün Gülüş Günüdür...

**1 aprel bütün dünyada Gülüş günü kimi qeyd edilir. Həmin gün hamı bir-birini aldadır, zarafatlaşır. Bəzən bu olaylar həqiqətən gülməli, bəzən isə müəyyən çərçivələrdən kənara çıxan yersiz hərəkətlər kimi yaddaşlarda qalır. Bu səbəbdən 1 aprel həm də "axmaqlar günü" kimi də xatırlanır. Bu gün dünyanın ən ciddi insanı belə ona edilən zarafatı xoş qarşılayır.**

Bəs Gülüş Gününün yaranma tarixçəsi haqda nələri bilirik? Bu sualın cavabı ilə bağlı bir neçə versiyalar mövcuddur. Ən yayğın ehtimallara görə, Gülüş Gününün kökü qədim Romaya dayanır. Belə ki, hələ 2000 il əvvəl aprelin 1-də qədim Romada indikinə oxşar bayramlar keçirilər, bu bayramı ağılsızların günü adlandırırlarmış. Hər şey isə qapı qulluqçularından birinin imperator Konstantinə zarafatla gülüşün dövlətə onun özündən çox fayda verə biləcəyini deyəcək qədər ürəklənməsindən başlayıb. Konstantin ona söylədiklərini həyata keçirmək imkanı verib və xüsusi qərar çıxarıb ki, ilin bir günü Romanı zarafatcıl şəxs idarə etsin. Həmin tarixdə ölkənin hər yerində insanlar gülür və müxtəlif zarafatlar edirmişlər.



Bəziləri hesab edir ki, bu ənənə Fransada yaranıb. Şərqi Hindistanda isə 31 mart Aldatma günüdür. Daha geniş yayılmış versiyalardan biri isə Roma papası Qriqori tərəfindən hazırlanmış 1582-ci ilin Qriqoryan təqvimi ilə əlaqədardır. Həmin vaxtadək yeni il həftəsi martın 25-dən başlayar, aprelin 1-də başa çatırdı. Təqvimin dəyişməsinə baxmayaraq, insanların bəzisi yeni ili köhnə qaydalarla qarşılamağa üstünlük verirdilər.

Digər versiya isə Pasxa ilə əlaqədardır. Bildirilir ki, məhz aprelin 1-də müəyyən ölkələrdə Pasxa öncəsi yaz bərabərliyinin başlanğıcı kimi anılıb. Deyilənə görə, insanlar yeni ilin ilk gününü şən zarafatlarla keçiriblər. Belə adamları ələ salır, onlara axmaq hədiyyələr verir, özlərini isə aprel axmaqları adlandırırdılar.

Rusiyada isə gülüş gününün tarixi I Pyotrun hakimiyyəti zamanına təsadüf edir. Həmin vaxt aprelin 1-də səhər Peterburqda əvvəllər yanğın təhlükəsindən xəbər verən həyəcan siqnalı çalınıb. Hamının yerindən dik atılmasına baxmayaraq, bu, zarafatyana tədbir idi. Lakin 1 apreli Gülüş yox, əksinə xoşbəxt olmayan gün sayan dövlətlər də var. Onların sırasında Almaniya və Avstriyanın adını qeyd edə bilərik. İnanclara görə, bu tarixdə anadan olan adamın həyatda bəxti gətirməyəcək. Səbəb isə dini amillərlə bağlıdır. Belə ki, aprelin 1-də xristianların peyğəmbəri İsa Məsihi satan İuda anadan olub. Şeytanın göydən yerə endiyi gün kimi dəyərləndirilən bu tarixdə hər yerdə həyat dayanar, kəndlilər belə əkin-bisinlə məşğul olmazlarmış. Həm böyüklər, həm də uşaqlar bir-birilərini aldadaraq əslində yerinə yetirilməsi mümkünsüz olan tapşırıqların arxasınca göndərirlərmiş.

1 aprel bütün dünyada olduğu kimi, Azərbaycanda da gülüş və yumorla xatırlanır. Bu gün əslində ölkəmizdə Sovetlər dövründən qalma ənənə kimi xarakterizə edilir. Bir qədər də dünyadakı 1 aprel zarafatları barədə.

■ **1957-ci ildə BBC-nin Panorama verilişi tamaşaçılar sensasiyalı bir məlumat yaydı. İsveçrənin Tiçino rayonunun tarlalarında ilk dəfə ağaclarda hazır makaron yetişdirmək mümkün olub.** Tanınmış aparıcı Riçard Dimblbi özünün ciddi jurnalist təhqiqatları ilə ad çıxardığından çox adamda bu xəbərin həqiqiliyinə şübhə qalmadı. Kadrlarda qadınlar ağaclardan spaggetiləri dərir və günəşin altında qurudurdular. Bəzi tamaşaçılar dərhal studiyaya zəng edərək bu ekzotik malın nə zaman idxal olunacağını xəbər almağa başladılar. Digərləri isə BBC-nin belə kələklərə baş vurmasından qəzəb ifadə etdilər.

■ **1976-cı ildə astronom Patrik Moor BBC Radiosunun 2-ci kanalına müsahibədə xəbər verib ki, aprelin 1-i, səhər saat 9.47-də Pluton planeti Yupiterlə eyni xətdə olaraq Yer kürəsinin cazibə qüvvəsini azaldacaq.** Həmin anda adamlar tullansalar uça biləcəklər. BBC-ə minlərlə zəng gəldi və hətta bir qadın həqiqətən otaqda pərvaz edə bildiyini xəbər verdi.

■ **1986-cı ildə Fransada dərc olunan Le Parisien qəzeti elan etdi ki, Eyfel qülləsi Parisin Disneylənd əyləncə parkına köçürüləcək.** Qustav Eyfelin ucaltdığı mühəndislik şedevri 100 ildən çox idi ki Fransa paytaxtının rəmzi hesab edilirdi. Qəzet yazmışdı ki, Eyfelin yerində yeni stadion inşa olunacaq. Bu xəbər Fransada kəskin etirazlara və sonradan böyük sayda sifətin utandığından qızarmasına səbəb oldu.

1 aprel 1978-ci ildə Sidneyin körfəzinə minlərlə adam toplaşmışdı. Onlar tanınmış biznesmen Dik Smitin Antarktikadan buksirlə çəkib gətirdiyi aysberqin gəlməsini gözləyirdilər. Aysberq gəldi, amma o buzdan deyil, ağ plastmas və köpükdən düzəldilmişdi.

■ **1962-ci ildə İsveçdə cəmi bir telekanal vardı.** Və bu telekanalda aprelin 1-də peyda olan bir alim ciddi surətdə tamaşaçılara dedi ki, əgər onlar bir cüt qadın corabını ağ-qara rəngli televizorun üstünə keçirsələr, o zaman möcüzəvi surətdə ekran rəngli olacaq. Minlərə adam buna əməl etdi və məyus oldu. Rəngli televizor İsveçə 1970-ci il aprelin 1-də gəldi.

■ **1992-ci ildə Amerikanın sabiq prezidenti, Uoterqeyt qalmaqalı nəticəsində impiçment edilmiş Riçard Nikson yenidən prezident kampaniyasına qatılacağını bəyan etdi.** Özü də "mən heç zaman səhv addım atmamışam və atmayacağam" devizi altında. Əslində Niksonun bundan xəbəri yox idi. Bunu onun yerinə radio kanallardan birində efirə çıxan və sabiq prezidentin səsini düzgün yamsılayan bir komediya ustası demişdi. Lakin yüzlərlə adam zəng edərək Niksona səs verməyəcəklərini bəyan etdi.

■ **1975-ci ildə Avstraliyanın This Day Tonight teleproqramı elan etdi ki, sabahdan bütün ölkə total metrik sistemə keçərək.** Beləki, dəqiqədə 100 saniyə, saatda 100 dəqiqə və sutkada 20 saat olacaq. Bunun kələk olduğu üzə çıxanda adamlar heç də zarafat anlayacaq halda deyildilər.

■ **1998-ci ildə Makdonaldsın əbədi rəqibi Burger King restoran şəbəkəsi solaxaylar üçün burger bişirəcəyini vəd etdi.** Tam ciddi şəkildə deyilirdi ki, şirkət 32 milyon solaxay amerikalının ehtiyaclarına biganə qala bilməz. Bu burgerin tərkibi eyni olacaq, amma içindəkilər 180 dərəcəlik bucaq altında əks tərəfə doldurulacaqlar ki, solaxaylara kömək olsun. Buna inanmış solaxaylar Burger Kingə gedərək bu yeni təamdan dadmaq istədilər.

1940-cı ildə Filadelfiyada yerləşən bir radio günorta saat 3-də dünyanın sonunun gələcəyini xəbər verdi. Üstəlik xəbərdarlıq etdi ki, bu 1 aprel zarafatı deyil. Dünya hələ də dağılmayıb və deməli əslində zarafat imiş.

Bəli, göründüyü kimi bir çoxları hələ də 1 aprel olmasına baxmayaraq bu gün yayılan xəbərlərə, bəyanatlara səmimi qəlbdən inanırlar. Gülüşünüz bol olsun.

# Vaqifin məqbərəsinin bərpası yayda başa çatacaq



**"Zəfər Muzeyi möhtəşəm kompleks muzey olacaq". Bu barədə Qubada jurnalistlərə açıqlamasında Mədəniyyət naziri Anar Kərimov deyib.** Onun sözlərinə görə, muzeyin inşasına layihə hazır olandan və təsdiq olunandan sonra başlanılacaq. O bildirib ki, bu, dünyada unikal bir yer olacaq.

A. Kərimov Ağdamda açıq səma altında işğal muzeyinin inşasının nəzərdə tutulduğunu və prosesə beynəlxalq ekspertlərin də cəlb olunduğunu deyib: "Məqsəd ondan ibarətdir ki, insanlar bu dağıntıların miqyasını və erməni vəhşiliklərini, xislətini görə bilsinlər". Nazir bildirib ki, bu il Şuşada Xarı Bülbül festivalının da keçirilməsi nəzərdə tutulub. O bildirib ki, Prezidentin sərəncamı ilə Şuşada Vaqifin məqbərəsinin də bərpa işlərinə başlanılıb və yay aylarında bu proses başa çatacaq.

# Novator bəstəkar, cazmen, Xalq artisti - Rafiq Babayev

***Azərbaycan cazından danışarkən bu gün 85 yaşını qeyd etdiyimiz istedadlı bəstəkar, Xalq artisti, cazmen, pianoçu Rafiq Babayevin adını xatırlamamaq mümkün deyil. Milli cazın korifeylərindən olan Rafiq Babayev Bakıda musiqiçi ailəsində dünyaya göz açıb, musiqi təhsilinin bütün pillələrində uğur qazanmağı bacarıb. Caz musiqisinə böyük həvəsi, improvizasiya etmə bacarığı, ailədən gələn musiqiçi istedadı, sanki bu gəncin gələcək həyat yolunu müəyyən edirdi.***



Musiqi məktəbinin buraxılış imtahanında klassik musiqidən əlavə amerikalı caz pianist Bill Evansın kompozisiyasını da ifa edən Rafiq Babayev bu addımı ilə görkəmli bəstəkar Fikrət Əmirovun rəğbətini qazanır və caz dünyasına ilk addımlarını atmış olur. Təhsilini başa vurduqdan sonra özünün caz-instrumental qrupunu yaradan Rafiq Babayev SSRİ turnesinə çıxır, bir sıra caz festivallarının laureatı olur. Ötən əsrin 60-cı illərində ikinci baharını yaşayan milli caz Rafiq Babayevin töhfələri ilə sanki bir daha bütün dünyaya çatdırır. 1965-ci ildə o, özünün rəhbərlik etdiyi instrumental caz kvartetinin və Teymur Mirzəyevin Bakı vokal kvintetinin birləşməsi nəticəsində yaranmış "Qaya" caz vokal instrumental ansamblının musiqi rəhbəri təyin edilir. Ayrı-ayrı vaxtlarda Mahnı Teatrının musiqi rəhbəri, estrada-simfonik orkestrinin bədii rəhbəri və dirijoru kimi çalışır. Yaratdığı musiqi kollektivlərində gənc və istedadlı musiqiçilərin üzə çıxması üçün əlindən gələni əsirgəmir. Rafiq Babayev 1978-ci ildə Azərbaycan SSR-in Əməkdar artisti, 1993-cü ildə isə müstəqil Azərbaycanın Xalq artisti adlarına layiq görülür. Milli musiqini cazla sintez edərək ona yeni nəfəs verən istedadlı bəstəkar 20-dən çox bədii və sənədli ekran əsərinə, həmçinin cizgi filminə musiqi bəstələyib.

Həyat yolu Rəşid Behbudov, Vaqif Mustafazadə, Müslüm Maqomayev kimi milli musiqimizin görkəmli simaları ilə kəsişən Rafiq Babayevin hərtərəfli şəxsiyyəti mədəniyyətimizdə öz izini qoymaqla bərabər, yeni musiqiçilər nəslinin nümayəndələri üçün də ilham mənbəyi olan bir məbəddir. 1993-cü ildə çəkilmiş "Təhminə və Zaur" filminin saundtreki olan "Əlvida" kompozisiyası daha sonra bir sıra müğənnilər tərəfindən oxunsa da, Rafiq Babayevin ifasında təkrarolunmazdı.

Lakin dünyanın lənətlədiyi terror bu böyük sənətkarın həyatına son qoydu. 19 mart 1994-cü il. Bakı metrosunda törədilmiş terror nəticəsində 14 həmvətənimiz öldü. Ölənlər arasında Xalq artisti, Azərbaycanın caz musiqisi sənətinin yeni parlaq səhifələrini yaradan Rafiq Babayevin də adı var. Ömründə ilk və son dəfə yer altına enən dahi sənətkar həyata elə oradaca əlvida dedi. Anadan olmasının 85-ci ildönümü tamam olan Rafiq Babayevin əziz xatirəsi "Kədərimiz... Vüqarımız", "Günorta qatarı" filmlərində, qızı Fərizə Babayeva və sənətşünas Rauf Fərhadoğlunun müəllifi olduğu "Rafiq Babayev: mövzudan improvizəyə" kitabında və ən əsası hər bir azərbaycanlının düşüncələrində yaşayır.

# Sultan Süleymanın portreti hərracda rekord qiymətə satılıb

**Osmanlı imperiyasının 10-cu sultanı olan Sultan Süleyman Qanuninin portreti İngiltərədə hərracda rekord qiymətə satılıb. İlkin məbləğ olaraq 60 min funt sterlinqə (təxminən 691 min türk lirəsi və ya 142 min 500 manat) satışa çıxarılan portret 350 min funt sterlinqə (təxminən 830 min manata və ya 4 milyon türk lirəsi) satılıb.**

Alıcı vergilərlə birlikdə portretə 438 min funt sterlinq (təxminən bir milyon 100 min manat və ya beş milyon türk lirəsi) ödəyəcək. XVI əsrin sonu-XVII əsrin əvvəllərində çəkildiyi ehtimal edilən və çox nadir bir əsər hesab olunan portret mis çərçivəsi ilə birlikdə 44.5x39.8 santimetr ölçülərindədir.

Portretin Möhtəşəm Süleymanın təxminən 43 yaşında İraqdakı Səfəviləri və Preveze dəniz döyüşündə səlib donanmasını məğlub etdikdən sonra gücünün zirvəsində olduğu bir dövrdə çəkildiyi irəli sürülür. Osmanlı və Venediklilər arasındakı sənət mübadiləsinə işıq tutduğu düşünülən portret, XIX əsrdən bəri bir fransız ailəsinin xüsusi kolleksiyasında saxlanılıb. "İslam dünyası və Hindistan sənətləri" mövzulu hərraca ümumilikdə 183 əsər təqdim edilib. Hərracda Qanuni Sultan Süleymanın qızı Mihrimah Sultanın XVII əsrə aid portreti, müxtəlif dövrlərə aid müqəddəs "Qurani-Kərim" və səhifələri, Osmanlı zamanına aid müxtəlif kilim növləri və xalçalar da satılıb.

# Səhhətimizə ziyan vuran ən təhlükəli içkilər hansılardır?



**İnsan səhhəti üçün ən təhlükəli alkoqollu içkilər kokteyllərdir. Milli.Az RİA Novosti-yə istinadən xəbər verir ki, bunu məşhur psixatr-narkoloq Dmitri Kubarev bildirib.**

Onun sözlərinə görə, kokteyllərin içərisində müxtəlif boyalar və dadgətirici vasitələr var. İnsan orqanizminə pivə də zərər vurur. Belə ki, çox hallarda onlar da konsentrant vurulur. Ən təhlükəsiz içki isə üzüm şirəsindən alınan içkilər hesab edilir.

## GÜNÜN FOTOSU



Suriyanın İdlib şəhərində küçə pişiklərinin toplanma "məntəqəsi"

## İkili diplom - tələbələr üçün böyük şans

**Nadir İsrafilov,**
Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini, təhsil eksperti

Bu gün Azərbaycanın təhsil sektorunda aparılan islahatlar Avropa təhsilinə inteqrasiyanı xeyli sürətləndirib. ▸▸ Səh. 4

## STATİSTİKA



■ Əgər günəş boş şar olsaydı, onun içini doldurmaq üçün 1000000 Yer planeti lazım olacaqdı.

■ Günəş ətrafında ən azı 8 planet, 5 kiçik planet, 10 mindən çox asteroid, 3 trilyon komet fırlanır.

■ Günəşin ümumi çəkisi Günəş sisteminin ümumi çəkisinin 99,8 faizini təşkil edir.

■ Qalaktikamızdakı ulduzların 85 faizi Günəşdən daha az parlaqdır.



▸▸ Səh. 7

# Dənizkənarı Milli Parkda yaz hazırlığı